**VASİF QAFAROV[1]**

# BATUM KONFRANSI VƏ MÜSTƏQİL AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN YARADILMASI

***Açar sözlər:*** *Batum konfransı, Zaqafqaziya Seymi, Azərbaycan Cümhuriyyəti, Xəlil bəy Menteşə, Akaki Çxenkeli, Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Həsən Hacınski*

1918-ci il martın 3-də Dördlər İttifaqı ilə Sovet Rusiyası arasında imzalanan Brest-Litovsk sülh müqaviləsinə görə Rusiya, rus qoşunlarının işğalı altında olan Şərqi Anadolu əraziləri yanaşı, 1877-1878-ci il rus-türk müharibəsinin yekunlarına görə Osmanlı dövlətindən aldığı Qars, Ərdəhan və Batum vilayətlərini də dərhal boşaltmağı öz üzərinə götürdü. Müqaviləyə görə, Rusiya bu ərazilərin yeni idarə formasına və hüquqi durumlarına qarışmamalı və bu bölgələrin gələcək idarə forması qonşu dövlətlər və xüsusilə Osmanlı dövləti ilə razılaşacaq yerli əhali tərəfindən müəyyən edilməli idi [19; 13; 28, s. 121]. Lakin Rusiyada baş verən vətəndaş müharibəsi və anarxiya ilə əlaqədar olaraq 1918-ci il fevralın 23-də Cənubi Qafqazda yaranan Zaqafqaziya Seymi bolşevik hökumətinin hakimiyyətini tanımaqdan və onun imzaladığı Brest-Litovsk müqaviləsinin şərtlərini yerinə yetirməkdən imtina etdi. Buna görə də Osmanlı dövləti Şərqi Anadolu və Qars, Ərdəhan və Batum vilayətlərinin boşaldılaraq Türkiyəyə təhvil verməklə bağlı Brest-Litovskda Sovet Rusiyasına qəbul etdirdiyi müqavilə əsaslarını ayrıca Zaqafqaziya Seyminə də qəbul etdirməli oldu və bu münasibətlə tərəflər 1918-ci il martın 14-də tərəflər Trabzonda sülh konfransına toplaşdılar. Osmanlı dövləti, Trabzon danışıqlarında (14 mart-14 aprel 1918) Brest-Litovsk sülh müqaviləsinin Qafqaza aid maddələrini Zaqafqaziya Seyminə qəbul etdirib, onun əsasında sülh bağlamaq istəsə də, Seymin bir tərəfdən özünü Rusiyanın bir hissəsi hesab etməsi və müstəqilliyini elan etməməsi, digər tərəfdən də Sovet Rusiyasının imzaladığı Brest müqaviləsini qəbul etməməsi səbəbindən bir ay davam edən danışıqlar uğursuzluqla nəticələndi və Tiflis hökuməti türk tələbləri qarşısına silahla çıxdı. Lakin Zaqafqaziya Seymi ilə Türkiyə arasında müharibə cəmi səkkiz gün davam etdi. Türklər 14 aprel 1918-ci il tarixində Batumu asanlıqla ələ keçirdilər. Ərdəhan da hələ aprelin 3-də ələ keçirilmişdi. Qarsı qorumağa çalışan ermənilər isə müqaviməti davam etdirirdilər. Batum alındıqdan sonra Zaqafqaziya hökumətində əsas rol oynayan gürcülər artıq müqavimətin mənasız olduğunu anladılar.

Aprelin 22-də Vehib paşa A.Çxenkeliyə teleqram göndərərək sülh təşəbbüsü ilə çıxış etdi. Vehib paşa Zaqafqaziya Seymini Trabzon danışıqlarını kəsməkdə günahlandırıb, bunun məsuliyyətinin Tiflis hökumətinin üzərində olduğunu ifadə etdi və bildirdi ki, sülh məsələsi tamamilə Zaqafqaziyadan asılıdır [10; 29, s. 199]. Türkiyənin sülh təklifi Seymdə sevinclə qarşılandı. Çünki müharibənin davam etdirilməsində ciddi çətinliklər yaranmış, cəbhədəki məğlubiyyətlər Seymin gürcü fraksiyasında da böyük narazılıq yaratmışdı. Müsəlman fraksiyası isə ümumiyyətlə bu müharibənin aparılmasından narazı idi.

Seymin 1918-ci il aprelin 22-də N.Çxeidzenin sədrliyi ilə keçirilən tarixi iclasında uzun müzakirələrdən sonra gecədən xeyli keçmiş böyük səs çoxluğu ilə Zaqafqaziya müstəqil Demokratik Federativ Respublika elan olundu. Həmçinin burada Türkiyə ilə sülh danışıqlarının davam etdirilməsi və tezliklə sülh müqaviləsinin bağlanması haqqında qərar qəbul edildi [29, s. 222]. Beləliklə, Zaqafqaziya Seymi Türkiyənin müstəqilliklə bağlı tələbini felən yerinə yetirmiş oldu, eyni zamanda Brest-Litovsk sülhünü də qəbul edib onun əsasında sülh imzalamaq niyyətində olduğunu bəyan etdi. Osmanlı dövlətinin diktəsi və Seymin Müsəlman fraksiya-

[1] *AMEA A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent.*

sının israrı nəticəsində elan edilən müstəqillik Zaqafqaziyanın Rusiyadan ayrılması prosesini başa çatdırmaqla böyük tarixi əhəmiyyətli hadisə idi.

Gegeçkori hökuməti istefa verdi. Yeni hökumətin yaradılması sülh tərəfdarı olan A.Çxenkeliyə tapşırıldı. Aprelin 26-da Seym A.Çxenkelinin rəhbərliyi ilə qurulan müstəqil Zaqafqaziya hökumətinin tərkibini təsdiq etdi və onun bəyanatını dinlədi. On üç nazirdən ibarət olan yeni hökumətin tərkibi aşağıdakı kimi idi: Baş nazir və xarici işlər naziri – A.Çxenkeli, daxili işlər naziri – N.V.Ramişvili, maliyyə naziri – A.İ.Xatisov, yollar naziri – X.Məlik-Aslanov, ədliyyə naziri – F.X.Xoyski, hərbi nazir – Q.T.Qeorqadze, kənd təsərrüfatı naziri – N.Q.Xomeriki, xalq maarifi naziri – N.Yusifbəyli, ticarət və sənaye naziri – M.H.Hacınski, ərzaq naziri – A.İ.Saakyan, xeyriyyəçilk naziri – R.İ.Kaçaznuni, əmək naziri – A.A.Erzinkyan, dövlət nəzarətçisi – İ.Heydərov [29, s. 229]. Göründüyü kimi, 26 mart 1918-ci il tarixində E.Gegeçkori hökumətində edilən kabinə dəyişikliyində yer alan azərbaycanlı nazirlər – F.X.Xoyski, M.H.Hacınski, X.Məlik-Aslanov və İ.Heydərov müstəqil Zaqafqaziya heyətində də öz postlarını qoruyub saxlaya bildilər. Poçt və teleqraf naziri kimi əvvəlki hökumətdə yer alan L.Behbudov yeni hökumətdə təmsil olunmadı, onun yerinə N.Yusifbəyli xalq maarifi naziri kimi yeni hökumətdə yer aldı. Yeni hökumətdə ermənilər dörd nazir yeri əldə etsələr də, onlardan bircə maliyyə naziri əhəmiyyətli nazirlik idi. Əsas srtateji nazirliklər – baş nazir, xarici işlər, daxili işlər, hərbi və kənd təsərrüfatı nazirlikləri gürcülərin əlində idi.

A.Çxenkelinin elan etdiyi bəyanatda hökumətin qarşısında dayanan əsas vəzifələr kimi aşağıdakılar göstərilirdi: 1. Konstitusiya hazırlamaq; 2. Respublikanın sərhədlərini müəyyən etmək; 3. Müharibəyə son qoymaq; 4. Anarxiya və əksinqilaba qarşı mübarizə aparmaq; 5. Torpaq islahatı keçirmək [29, s. 230-233; 25, s. 169]. A.Çxenkelinin bəyanatından sonra çıxış edən M.Ə.Rəsulzadə yeni hökumətə xatırlatdı ki, daha iki məsələ – Bakının Şaumyan rejimindən azad edilməsi və Zaqafqaziya federasiyasına daxil olmaq arzusunda olan Dağıstanla əlaqə məsələsi də hökumətin diqqət mərkəzində saxlanılmalıdır [29, s. 233-234].

A.Çxenkeli hələ yeni hökumətin tərkibini elan etmədən, 1918-ci il aprelin 23-də Zaqafqaziya hökumətinin rəhbəri və xarici işlər naziri kimi Vehib paşaya göndərdiyi teleqramında məlumat verib bildirdi ki, öz müstəqilliyini elan etmiş Zaqafqaziya Respublikası Türkiyənin tələblərini qəbul edir və Brest-Litovsk sülhü əsasında danışıqları davam etdirməyə hazırdır. Çxenkeli, həmçinin xahiş etdi ki, sülh danışıqları Batumda davam etdirilsin [11; 29, s. 224]. O, eyni zamanda, aprelin 23-də hərbi əməliyyatları dayandırmaq haqqında əmr imzaladı [29, s. 225]. Aprelin 26-da A.Çxenkeli baş nazir və xarici işlər naziri kimi, 22 aprel 1918-ci il tarixində Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi ilə bağlı böyük dövlətlərə, o cümlədən də Osmanlı imperiyasına teleqram göndərdi [20, v. 1]. Elə həmin gün, aprelin 26-da Osmanlı dövləti Zaqafqaziya Respublikasının müstəqilliyini tanıdı və sülh danışıqlarının Batumda keçirilməsinə razılıq verdi [9]. Qeyd edək ki, Qafqaz cəbhəsinin komandanı Mehmed Vehib paşa tərəfindən göndərilən bu teleqram Tiflisə aprelin 28-də çatdığından və sonralar həmin tarixlə nəşr edildiyindən [29, s. 253; 27, s. 33] tarixi ədəbiyyatda Zaqafqaziya Respublikasının Osmanlı imperiyası tərəfindən tanınma tarixi səhvən 28 aprel 1918-ci il olaraq göstərilmişdir.

1918-ci il 6 may tarixində Osmanlı və Zaqafqaziya nümayəndə heyətləri Batuma gəldilər. 10 nəfərlik Osmanlı nümayəndə heyətinə ədliyyə naziri və xarici işlər naziri vəkili Xəlil bəy Menteşə rəhbərlik edirdi. Hərbi nümayəndə kimi heyətdə təmsil olunan Qafqaz cəbhəsinin komandanı Mehmed Vehib paşa Xəlil bəydən sonra ikinci önəmli şəxs idi [8; 9]. Osmanlı heyətinin digər üzvləri isə, Muxtar və onların daşıdığı vəzifələr aşağıdakı kimi idi: Muxtar bəy müşvir, Orxan və Nizaməddin bəylər katib, Nüsrət bəy hüquq müşaviri, Sadıq və Cəlal bəylər rusca tərcüməçi, Doktor Tevfiq Salim bəy və Yusif Ziya bəy hərbi müşavir [26, s. 515-516].

Baş nazir Akaki Çxenkelinin rəhbərlik etdiyi Zaqafqaziya nümayəndə heyətinə isə Seymdəki fraksiyalararası qarşılıqlı inamsızlıq





səbəbindən 45 nəfər daxil idi. Lakin nümayəndəlik 6 həlledici üzvdən ibarət idi. Buraya gürcülərdən A.Çxenkeli və N.Nikoladze, azərbaycanlılardan M.Ə.Rəsulzadə və M.H.Hacınski, ermənilərdən R.İ.Kaçaznuni və A.İ.Xatisov daxil edilmişdi [27, s. 34; 31, s. 109].

Konfransda Rusiyadan ayrılmağa qərar vermiş Şimali Qafqaz dağlılarının nümayəndələri də iştirak edirdilər. Heydər Bammatovun rəhbərlik etdiyi Şimali Qafqaz heyətinə Əlixan Qantəmir, Əbdülməcid Çermoyev, Zübeyr Temirxanov və Məhəmməd Kadı Dibirov daxil idi. Qeyd edək ki, Şimali Qafqaz nümayəndələri Trabzon konfransında da qeyri-rəsmi iştirak etmiş, konfrans bitdikdən sonra Rauf bəylə birlikdə İstanbula getmiş və elan etdikləri istiqlaliyyət barədə Osmanlı hökumətinə və onun müttəfiqlərinə məlumat vermişdilər. Şimali Qafqaz heyətinin Batum konfransında iştirakına Türkiyə və Almaniya razılıq vermiş və heyət sədri H.Bammatov Xəlil bəylə birlikdə İstanbuldan Batuma gəlmişdi. Heyətin digər üzvləri də sonrakı günlərdə Batuma gəldilər. Sovet Rusiyası bu barədə Almaniyaya öz etirazını bildirsə də, bunun elə bir əhəmiyyəti olmadı.

Trabzon konfransından fərqli olaraq Batum konfransında Almaniya da müşahidəçi qismində iştirak edirdi. Almaniyanın İstanbuldakı hərbi attaşesi general Otto von Lossovun rəhbərlik etdiyi alman heyətinə Tiflisdəki keçmiş alman konsulu qraf Fridrix Şulenburq və Yaxın Şərq üzrə mütəxəssis, diplomat Otto Qünter von Vesendonk daxil idi [32, s. 48-49, 51]. Almaniya 1918-ci il mayın 2-də Moskvadakı səfiri qraf Mirbax vasitəsilə Batum konfransında iştirak edəcəyini Sovet hökumətinə də bildirdi [32, s. 49]. Qeyd etdiyimiz kimi, Almaniya Brest sülhünə qədər Qafqaz siyasətini birbaşa deyil, İstanbul vasitəsilə həyata keçirirdi. Alman hərbi komandanlığının müharibə üçün xammal ehtiyacları ilə bağlı digər cəbhələrdə qarşısına qoyduğu məqsədlər iflasa uğradıqda, almanlar Brest sülhündən sonra Qafqazın təbii sərvətləri və xüsusilə Bakı nefti ilə birbaşa maraqlanmağa başladılar. Bu dövrdə Türkiyə Qafqaz istiqamətində təkbaşına irəlilədikdə, alman siyasi dairələri türklərin bölgədəki uğurlarına qısqanclıqla yanaşır və buna mane olmağa çalışırdılar. Buna görə də Almaniya Qafqazda gedən proseslərdən kənarda qalmamaq, Türkiyənin bölgədə möhkəmlənməsinə imkan verməmək və özünün Qafqazdakı mənafeyini təmin etmək məqsədilə Batum konfransına qatıldı. Bu zaman Almaniyanın İstanbuldakı səfiri Bersdorf bildirirdi ki, türkləri Zaqafqaziya hökumətinə qarşı arzu olunmaz addım atmaqdan çəkindirmək üçün general Lossovu Batuma göndərmişdir [32, s. 49].

Konfrans ərəfəsində Türkiyəyə qarşı Almaniyaya sığınmağa çalışan gürcülərin gizli olaraq Berlin hökumətindən himayə xahiş etmələri almanların Qafqaza nüfuz etmələri üçün yaxşı imkanlar açırdı. Bakı neftinin və Qafqazın digər təbii sərvətlərinin Almaniyaya daşınması, həmçinin gələcəkdə Orta Asiya və İranla bağlı hərbi-strateji planların reallaşdırılması üçün Batuma xüsusi əhəmiyyət verən almanlar bütün vasitələrdən istifadə edib bu liman şəhərinin türklərdə qalmasını istəmirdilər. Berlin hökuməti bəhs olunan dövrdə Batuma Almaniyanın nəzarəti altında sərbəst liman statusu verilməsini istəyirdi. Bu istək gerçəkləşmədiyi təqdirdə Potiyə alman əsgərlərinin çıxarılması planlaşdırılmışdı [32, s. 43-44, 157].

Osmanlı dövlətinin Qafqazda siyasi və hərbi cəhətdən fəallaşması nəticəsində meydana gələn yeni siyasi şəraitdən öz strateji məqsədləri üçün maksimum dərəcədə faydalanmağa çalışan Berlin hökuməti mövcud vəziyyətdə Almaniyanın Qafqaz siyasətini müəyyən etmək üçün 1918-ci il aprelin 22-də alman siyasi və hərbi dairələrinin iştirakı ilə konfrans keçirdi. Yeni siyasi şəraitdə Almaniyanın Qafqaz siyasətinin əsas prinsiplərini müəyyən edən bu konfransın qəbul etdiyi qərarlara görə, Osmanlı dövlətinə Brest-Litovsk müqaviləsinin müəyyən etdiyi sərhəd xəttini keçməyə imkan verilməməli, Zaqafqaziyanın müstəqilliyinin İttifaq dövlətləri, Rusiya və Ukrayna tərəfindən tanınmasına nail olunmalı, Cənubi Qafqaz tam olaraq Almaniyanın təsiri altına keçirilməli və bölgənin iqtisadi resurslarından maksimum dərəcədə istifadə edilməli idi [32, s. 45]. Bu qərarlar çərçivəsində hərəkət edən Almaniya Xarici İşlər Nazirliyi 29 aprel 1918-ci il tarixində "Türkiyə ilə Zaqafqaziya arasında aparılan danışıqlarda əsas

tutulacaq prinsiplər" adı altında yeddi maddədən ibarət bir "prinsiplər paketi" hazırladı. Almaniya bir tərəfdən Osmanlı dövlətinin Zaqafqaziyaya nüfuz etməsinin qarşısını almaq, digər tərəfdən də bölgənin təbii sərvətləri və dəmir yolları üzərində öz hegemonluğunu qurmaq istəyirdi.

Lakin Batumdakı Osmanlı heyətinin Almaniyanın irəli sürdüyü müqavilə layihəsini qəbul etməsi mümkün deyildi. Çünki Osmanlı heyətinə Ənvər paşa tərəfindən göndərilən müqavilə layihəsi, demək olar ki, alman layihəsinin əksi idi. Ənvər paşa 2 may 1918-ci il tarixində Vehib paşaya göndərdiyi təlimatda yazırdı: "Cənubi Qafqaz hökuməti ilə müzakirə ediləcək sülh şərtlərimizi aşağıda yazıram. Bu şərtlərin qəbul edildiyi təqdirdə heç bir müşkülat və məsələ qalmaz. Qəbul olunmadığı halda, bu şərtlərin silah yolu ilə əldə edilməsi, təbii, məcburi olar. Ədliyyə naziri (Xəlil bəy Menteşə – V.Q.) bəyəfəndi həzrətləri də müzakirələri çox qısa və qəti aparacaqdır. Bu xüsusu Xəlil bəyəfəndi ilə görüşdükdən sonra, müzakirələrinizin nəticələrini də bildirməyinizi rica edirəm. Onuncu maddədə nəzərdə tutulan ittifaqı indidən ərz etmək də müvafiqdir" [12]. Ənvər paşanın Batumdakı Osmanlı heyətinə göndərdiyi və Zaqafqaziya hökuməti sülh yolu ilə qəbul etməzsə, hərb yolu ilə qəbul etdirmək istədiyi "Qafqaz hökuməti ilə imzalanacaq sülh müqaviləsi layihəsi" adlı 11 maddədən ibarət müqavilə layihəsi aşağıdakılardan ibarət idi:

"1. Qafqaz hökuməti ordusunu dərhal hal-hazırki vəziyyətdə buraxacaq. Bu ordunun miqdarı və yerləşəcəyi yer Osmanlı hökumətinin razılığı ilə təyin ediləcək;

2. Qafqaz hökuməti Osmanlı ordusu və ya Dövlət-i Osmaniyə tərəfindən yaradılacaq Müsəlman korpusu üçün könüllü toplanmasına icazə verəcək;

3. Osmanlı dövləti zərurət yarandığı halda daxili nizam-intizam və asayişin bərpa olunması və qorunması üçün Qafqaz hökumətinə silahlı qüvvələri ilə köməklik göstərəcək. Digər tərəfdən Qafqaz hökuməti erməni quldur dəstələri ilə olan müharibədə Osmanlı dövlətinə köməklik göstərməyə məcburdur;

4. Osmanlı hökuməti Qafqaz hökumətinin sərhədlərini xarici düşmənlərdən qoruyacaq;

5. Qafqaz hökuməti öz ərazisində olan ingilis, fransız, amerikan, italyan və rus zabitlərini dərhal ölkə xaricinə çıxaracaq və gələcəkdə bu təbəələrdən ordu və hökumət idarələrində istifadə etməməyi öhdəsinə götürəcək. Osmanlı dövləti ilə İngiltərə, Fransa və İtaliya arasında müharibə davam etdiyi müddətdə bu dövlətlərin təbəələrinin Qafqaz hökuməti daxilində qalması qadağan ediləcək;

6. Osmanlı Ordusu Baş komandanlığı Qafqaz hökumətinin dəmir yollarında hər cür hərbi yüklər daşımaq hüququna malik olacaq. Bu məqsədlə Osmanlı Ordusu Baş komandanlığı bir hərbi dəmir yol heyəti təşkil edəcək ki, bu heyət dəmir yollarının təhlükəsiz və fasiləsiz işləməsini təmin edəcək;

7. Osmanlı dövləti altıncı maddədəki hüquqlarını tam və ya qismən öz müttəfiqlərindən birinə verməyə və ələlxüsus da müttəfiqlərinin hərbi yüklərinin nəqlini icra etməyə səlahiyyətlidir;

8. Osmanlı dövləti tələb edərsə, Qafqaz hökuməti Bakı limanındakı müəssisələrlə Xəzər dənizindəki Qafqaz hökumətinə aid nəqliyyat vasitələrini Osmanlı hökumətinin sərəncamına verəcək;

9. Qafqaz hökuməti Osmanlı dövləti müharibədə olduğu müddətdə onun düşmənləri ilə diplomatik və ya heç bir siyasi əlaqədə olmayacaq;

10. Osmanlı dövləti Qafqaz hökuməti ilə xarici siyasət və hərbi sahədə tərəflərin iqtisadi mənafelərinə uyğun bir ittifaq bağlayacaq;

11. Qafqaz hökuməti öz ərazisində istehsal olunan məhsulların Osmanlı dövlətinə və onunla müttəfiq olan ölkələrə ixrac edilməsi üçün bütün qüvvəsi ilə köməklik göstərəcək və bu məmləkətlərə göndərilmək üzrə Qafqazdan keçəcək yüklərin tranzitini asanlaşdıracaq. Osmanlı dövləti də bunun müqabilində Qafqaz hökumətinin ehtiyac duyduğu malların idxalında ona yardım edəcək" [12; 20, v. 2-4].

Müqavilə layihəsindən də göründüyü kimi, bu şərtlərin qəbul edilməsi Zaqafqaziyanın Osmanlı dövlətinin nəzarətinə keçməsi demək idi. Üstəlik, səkkizinci maddədə irəli sürülən





tələblər Osmanlı siyasi dairələrinin daha irəli gedən turançı siyasətindən xəbər verirdi. Ənvər paşa irəli sürdüyü müqavilə layihəsi ilə kifayətlənməyərək, sonrakı günlərdə Zaqafqaziya hökumətinə qarşı yeni-yeni tələblər irəli sürürdü. O, 1918-ci il mayın 4-də Vehib paşaya göndərdiyi teleqramında, Osmanlı dövləti ilə Qafqaz müsəlmanları arasında əlaqənin kəsilməməsi üçün Axıska, Axalkələk, Gümrü, Alagöz dağı və bölgədəki dəmir yolunun Türkiyəyə verilməsini tələb edirdi [14]. Bundan bir gün sonra, mayın 5-də Ənvər paşa Osmanlı dövləti ilə Zaqafqaziya arasında təsbit ediləcək sərhəd xəttini xırda detallarına qədər izah edib və bunu xəritə üzərində cızıb Vehib paşaya göndərdi [14]. Öz növbəsində Vehib paşa da bu təlimatları mayın 10-da Xəlil bəyə təqdim etdi [24, v. 1-2].

Qeyd edək ki, Osmanlı heyəti İstanbuldan Batuma yola düşən zaman Zaqafqaziya Respublikasına qarşı ərazi tələbləri ilə bağlı heyətə verilən təlimat ondan ibarət idi ki, Trabzon konfransında Osmanlı dövlətinin Brest-Litovsk sülhü ilə bağlı tələblərini qəbul etməyib müharibəyə rəvac verən Tiflis hökumətindən Brest sülhünün müəyyən etdiyi sərhədlərdən əlavə Axıska və Sürməli qəzaları da tələb edilməli və bu ərazilər də alınıb Türkiyəyə birləşdirilməli idi [22, v. 12; 20, v. 65-66]. Osmanlı heyəti Batuma gəldikdən sonra Ənvər paşanın Vehib paşa vasitəsilə türk heyətinə göndərdiyi və konfransda Zaqafqaziya hökumətinə qəbul etdirmək istədiyi bu yeni sərhəd xəttinə görə isə, Brest-Litovsk sülhünün müəyyən etdiyi sərhədlərdən əlavə Axıska, Axalkələk, Gümrü, Sürməli qəzaları, Eçmiədzin və İrəvan qəzalarının bir hissəsi və Naxçıvan qəzası (Ordubad istisna olmaqla) da Osmanlı dövlətinə verilməli idi [24, v. 1-2; 14]. Ənvər paşanın göndərdiyi bu ərazi tələbləri haqqında Vehib paşadan məlumat alan Xəlil bəy, dərhal sədrəzəm Tələt paşa ilə teleqramla əlaqə saxladı və məsələni aydınlaşdırmaq istədi. Elə həmin gün, yəni mayın 10-da Tələt paşa Xəlil bəyə göndərdiyi teleqramında Ənvər paşa tərəfindən Batuma göndərilən ərazi tələblərini təsdiq etdi və qeyd etdi ki, "Ənvər paşa tərəfindən təklif edilən sərhəd xətti istəklərimizin maksimum həddidir" [20, v. 6]. Xəlil bəy, bu tələbləri həddindən çox böyük və qəbul etdirilə biləcəyini qeyri-mümkün hesab etsə də [20, v. 30], Ənvər və Tələt paşaların qəti və israrlı mövqeyi qarşısında geri çəkilmək məcburiyyətində qaldı.

Osmanlı imperiyası ilə Zaqafqaziya Respublikası arasında Batum konfransı 1918-ci il mayın 11-də saat 16:00-da Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşənin sədrliyi ilə öz işinə başladı [20, v. 9]. Konfransın ilk və son ümumi toplantısı olan bu iclasda Türkiyə və Zaqafqaziya Respublikasının nümayəndələrindən əlavə Lossovun rəhbərlik etdiyi Almaniya nümayəndə heyəti və Şimali Qafqaz nümayəndələri də iştirak edirdi. Konfransı giriş sözü ilə açan Xəlil bəy qonaqları salamladı və "Qafqaz üfüqlərində doğan hürriyyət və istiqlal ulduzundan Qafqazın tezliklə faydalanmasını və yaxın gələcəkdə bütün insan hüquqlarını təmin etməsini" arzuladı, Türkiyənin bölgə ilə yaxşı qonşuluq münasibətləri qurmağa hazır olduğunu və buradakı müzakirələrlə tərəflərin mənafeyini təmin edəcək əsasların hazırlanacağına ümid etdiyini vurğuladı. Daha sonra etimadnamələr tədqim və tədqiq edildi. Şimali Qafqaz heyətinin də Batum konfransında iştirak etməsinə tərəflərdən heç biri etiraz etmədi və onlar da konfransa buraxıldılar. Konfransın rəsmi dili fransız dili olaraq qərarlaşdırıldı [20, v. 9]. Müzakirələrin yekunlaşmasına qədər bu danışıqlarla bağlı mətbuata məlumat verilməməsi haqqında da qərar qəbul olundu.

Xəlil bəydən sonra çıxış edən Zaqafqaziya nümayəndə heyətinin rəhbəri A.Çxenkeli Trabzon konfransında tərəflər arasında aparılan müzakirələrdən bəhs edərək, o zaman Osmanlı hökuməti tərəfindən müzakirələr üçün əsas olaraq Brest-Litovsk müqaviləsinin Qafqaza aid maddələrinin qəbul edilməsini istədiyini və bunu 6 aprel 1918-ci il tarixində ultimatumla tələb etdiyini, Zaqafqaziya tərəfdən də aprelin 10-da verilən cavabda bu əsasın qəbul edildiyini xatırladıqdan sonra, Brest müqaviləsi ilə daha yaxından tanış olmaq üçün onun mətninin Zaqafqaziya heyətinə verilməsini xahiş etdi. O, eyni zamanda Trabzon konfransındakı Osmanlı heyətinin 13 aprel tarixli bəyannaməsini xatırladaraq, Zaqafqaziya tərəfinin müzakirələrə müttəfiq dövlətlərin də dəvət edilməsi tələbinə qarşı,

Rauf bəyin bunun üçün Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini şərt qoyduğunu vurğuladı və qeyd etdi ki, Zaqafqaziya hazırda müstəqilliyini elan etdiyindən müzakirələrə Türkiyənin müttəfiqləri də cəlb olunmalı və Brest-Litovsk müqaviləsi əsas olaraq qəbul edilməlidir. A.Çxenkeli başa düşürdü ki, Tiflis hökuməti Trabzon konfransında Osmanlı dövlətinin Brest-Litovsk müqaviləsini əsas kimi qəbul etməklə bağlı tələblərini qəbul etməyib müharibəyə rəvac verdiyindən hazırki vəziyyətdə Türkiyə daha ağır tələblərlə çıxış edə bilər. Onun çıxışı da bu tələblərdən yayınmağa hesablanmışdı. A.Çxenkeliyə cavab verən Xəlil bəy qeyd etdi ki, Zaqafqaziya nümayəndə heyəti rəhbərinin məqsədi Brest-Litovsk müqaviləsinin rəsmi mətnini tələb etməkdirsə, biz bunu təmin edərik. Aparılacaq müzakirələrdə Brest müqaviləsinin əsas kimi qəbul edilməsi isə mümkün deyildir, çünki Osmanlı hökumətinin Brest müqaviləsinin əsas kimi qəbul edilməsi ilə bağlı təklifindən sonra vəziyyət tamamilə dəyişmişdir. Reallıq odur ki, o zamandan bəri Osmanlı ordusu Zaqafqaziya hökumətinin ordusu ilə qarşılıqlı olaraq müharibə aparmış, qan tökülmüş, nəticədə yeni şərait və yeni hüquq meydana gəlmişdir. Buna görə də sadəcə Brest-Litovsk müqaviləsinə istinad edilməsi qətiyyən müzakirə mövzusu ola bilməz [20, v. 9; 29, v. 314-315]. A.Çxenkeli "iki ordu arasında müharibə"nin səhv yanaşma olduğunu, təmsil etdiyi hökumətin müharibə edəcək halda olmadığını, Trabzon konfransının sonunda da danışıqlara müvəqqəti olaraq fasilə verildiyi ilə bağlı qərar qəbul etdiklərini, müharibənin Türkiyə ilə Zaqafqaziya arasında deyil, Türkiyə ilə Rusiya arasında getdiyini bildirərək, məsələnin qoyuluşunu dəyişməyə cəhd etdisə də, Xəlil bəy Brest sülhündən sonra cəbhədən rus ordusunun çəkilməsini, türk ordusunun Zaqafqaziya ordusu ilə müharibə apardığını bir daha bəyan edərək qəti şəkildə bildirdi ki, Zaqafqaziya tərəfi "Brest müqaviləsini əsas kimi qəbul etmək" prinsipini ortaya atmaqla müzakirələri lazımsız yerə uzatmaq niyyətindədir, lakin Osmanlı tərəfi müzakirələri tezliklə bir nəticəyə gətirməkdə qərarlıdır [20, v. 9].

Daha sonra Xəlil bəy, Ənvər paşanın Batumdakı Osmanlı heyətinə göndərdiyi qeyd etdiyimiz təlimatlar əsasında hazırlanmış on iki maddədən və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Zaqafqaziya Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında müqavilə" layihəsini müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim etdi və qeyd etdi ki, "bu müqavilə layihəsi siyasi, iqtisadi, hüquqi və hərbi maddələri ehtiva edir, iqtisadi, hüquqi, hərbi maddələr və texniki tərəflər sabahdan etibarən komissiyalarda mütəxəssislər tərəfindən müzakirə edilməyə başlasın, siyasi qismi isə mən Zaqafqaziya nümayəndə heyətinin rəhbəri ilə müzakirə edəcəyəm. Sonda təyin edəcəyimiz bir gündə ümumi iclas keçirərək nəticələri təsbit edərik" [20, v. 9-10]. A.Çxenkeli təklif etdi ki, müqavilənin siyasi qismi Osmanlı, Almaniya və Zaqafqaziya nümayəndə heyətləri rəhbərlərinin birgə iclasında müzakirə edilsin, lakin Xəlil bəy bunu qəbul etmədi, o, iki ölkə arasında münasibətlərin ikitərəfli danışıqlarda müzakirə edilməli olduğunu bildirdi və əlavə etdi ki, Çxenkelinin təklif etdiyi format yalnız konfrans iclasları arasındakı günlərdə baş tuta bilər. Bu təklif Çxenkeli tərəfindən qəbul edildi. Bununla da Batum konfransının ilk və son ümumi toplantısı olan bu iclas saat 18:35-də başa çatdı.

Xəlil bəyin A.Çxenkeliyə təqdim etdiyi on iki maddəlik müqavilə layihəsində Brest-Litovsk müqaviləsinin müəyyən etdiyi sərhədlərdən əlavə Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi [24, v. 1-2; 14; 6, s. 38; 27, s. 42; 7, s. 435-436; 32, s. 52, 59, 238; 33, s. 66, 75-76]. Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Eçmiədzin-Naxçıvan-Culfa dəmir yolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə





Türkiyəyə Zaqafqaziyanın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli, eyni zamanda Osmanlı dövləti tələb etdiyi təqdirdə Tiflis hökuməti, Bakı limanındakı müəssisələrlə Xəzər dənizindəki Qafqaz hökumətinə aid nəqliyyat vasitələrini Osmanlı hökumətinin sərəncamına verməli idi [24, v. 1-2; 14; 12].

Üç əlavə müqavilə layihəsinin də biri ticarət və dənizçiliyə dair müvəqqəti qaydalara, digəri sərhəd bölgələrindəki əhaliyə münasibətlərdə tətbiq edilməli olan xüsusi güzəştlərə, üçüncüsü də müqavilənin maddələri ilə bağlı yarana biləcək anlaşmazlıqların aradan qaldırılmasına dair idi [27, s. 42; 30, s. 173-174; 31, s. 110; 26, s. 549].

Osmanlı dövlətinin tələbləri nəinki Brest-Litovsk müqaviləsinin Türkiyə üçün müəyyən etdiyi 1877-1878-ci illər müharibəsinə qədərki türk-rus sərhəd xəttini, hətta 1828-ci ildəki türk-rus sərhədini də aşırdı. Zaqafqaziya nümayəndə heyəti isə Brest-Litovsk müqaviləsi əsasında sülh bağlamaq və hətta bundan da müəyyən güzəştlər qoparmaq üçün Batuma gəlmişdi.

Zaqafqaziya nümayəndə heyəti Xəlil bəyin təqdim etdiyi müqavilə layihəsi ilə tanış olduqdan sonra nümayəndə heyətində, həmçinin Seymdə onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşməyə başladı. Bu da öz növbəsində Zaqafqaziya heyətində təmsil olunan azərbaycanlı, gürcü və erməni nümayəndələrinin ayrı-ayrılıqda Türkiyə və Almaniya ilə danışıqlar aparmasına gətirib çıxardı.

Gürcülər türk tələbləri qarşısında çıxış yolu kimi Almaniyaya sığındılar. Mövcud vəziyyətdə ən çətin durumda qalan ermənilər də almanlara sığınmaq qərarına gəldilər. Türk tələblərində Azərbaycanla bağlı ərazi tələbləri də var idi. Lakin bu zaman Azərbaycan nümayəndələri bolşevik-daşnak alyansı tərəfindən bütün Cənubi Qafqaz boyu türk-müsəlman əhalisinə qarşı ən şiddətli şəkildə davam etməkdə soyqırımların qarşısını almaq və Bakı məsələsini həll etmək üçün ölkəyə Osmanlı hərbi yardımını təmin etməyə çalışdığından bu tələblərə münasibətdə hansısa bir irad və ya təklif bildirmədilər. Bu həm də onunla bağlı idi ki, Osmanlı tələblərində yer alan Azərbaycan ərazilərində ermənilərin türk-müsəlman əhalisinə qarşı soyqırım aktları ən dəhşətli şəkildə davam etdirilir və Seymin müsəlman fraksiyası bu soyqırımların qarşısını almaqda aciz idi.

Konfransın ilk iclasında mayın 12-dən etibarən Osmanlı nümayəndə heyətinin təklif etdiyi müqavilə layihəsinin ayrı-ayrı maddələri ilə bağlı hər iki tərəfin nümayəndələrindən ibarət komissiyaların yaradılması qərarlaşdırılmışdı [20, v. 9-10]. Lakin Zaqafqaziya heyətinin gürcü, azərbaycanlı və erməni nümayəndələri nəinki komissiyaların işində iştirak etmək, heç Osmanlı tələblərinə münasibətdə ümumi bir fikrə gələ bilmədilər. Zaqafqaziya nümayəndə heyətinin mayın 12-də keçirilən iclasında Osmanlı tələblərini qəbul və ya rədd etmək məsələsi ətrafında qızğın müzakirələr getdi və bu müzakirələr heyətdə onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətləri daha da dərinləşdirməyə başladı. İclasın sonunda belə bir qərara gəlindi ki, Zaqafqaziya nümayəndə heyəti Osmanlı heyəti qarşısında öz təklifləri ilə çıxış etsin və bununla bağlı bəyannamə mətni hazırlandı. Ertəsi gün Osmanlı heyətinə təqdim edilən bu bəynnamədə Osmanlı hökumətinin irəli sürdüyü müqavilə layihəsi ilə bağlı olaraq Zaqafqaziya heyəti təklif edirdi ki: 1. Müqavilə təkcə Türkiyə ilə Zaqafqaziya arasında deyil, Dördlər İttifaqı ilə Zaqafqaziya Respublikası arasında imzalanmalı və Brest-Litovsk sülhünə əsaslanmalıdır; 2. Mövcud müharibə ilə bağlı müharibənin sonunadək qüvvədə qalacaq bütün sazişlər xüsusi bir konvensiyanın predmeti olmalı və bu konvensiya Dördlər İttifaqı ilə Zaqafqaziya Respublikası arasındakı müqaviləyə əlavə olaraq imzalanmalıdır; 3. Osmanlı imperiyası ilə Zaqafqaziya Respublikası arasında iqtisadi, hüquqi və qonşuluq münasibətləri ilə bağlı məsələlər iki dövlət arasında xüsusi sazişlə təsdiq edilməlidir; 4. Avstriya-Macarıstan və Bolqarıstan təmsilçilərinin bu danışıqlarda iştirak etməməsi müzakirələrin davam etdirilməsinə və müqavilənin imzalanmasına mane olmur, onlar müqaviləyə sonra da qoşula bilərlər [20, v. 23; 29, s. 268-269].

Təkliflərdən də göründüyü kimi, indi Zaqafqaziya heyəti Trabzon konfransında heç bir vəchlə qəbul etmək istəmədiyi Brest-Litovsk müqaviləsində israr edir və Osmanlı imperiyası

ilə Zaqafqaziya Respublikası arasında imzalanacaq müqavilənin Brest müqaviləsinə əsaslanmalı olduğu tezisini irəli sürürdü. Eyni zamanda, bu təkliflər Almaniyanın sülh danışıqlarına daha aktiv cəlb etmək üçün diplomatik manevr idi. Birinci təkliflə dördüncü təklif arasında olan ziddiyyət də bu həqiqəti ortaya qoyur. Zaqafqaziya nümayəndə heyətinin düşdüyü acınacaqlı vəziyyətlə bağlı həmin heyətdə məsləhətçi kimi təmsil olunan Zurab Avalov sonralar nəşr etdiyi xatirələrində yazırdı ki, "Türkiyə Trabzonda Brest-Litovsk müqaviləsi ilə Zaqafqaziyanı əzmək istəmişdi, indi isə biz bu müqaviləyə sığınaraq onu Türkiyə qarşısında qoyub müdafiə olunmaq istəyirdik" [27, s. 45].

Mayın 13-də Zaqafqaziya nümayəndə heyəti Osmanlı heyətinə yazılı şəkildə təklif təqdim etdi ki, əgər Zaqafqaziya Respublikasının müstəqilliyi Dördlər İttifaqı dövlətləri tərəfindən tanınarsa və müzakirələr Brest-Litovsk müqaviləsi çərçivəsində aparılarsa, o halda Zaqafqaziya hökuməti, Türkiyənin Cənubi Qafqaz dəmir yollarından hərbi məqsədlər üçün istifadə edilməsi, bölgədəki artıq məhsulların satılması və digər təkliflərini qəbul edəcəkdir [23, v. 46; 20, v. 16]. Bu təklifin ardınca A.Çxenkeli Xəlil bəylə görüşüb bildirdi ki, Osmanlı hökumətinin ərazi təklifləri müstəqil bir Qafqaz dövlətinin təşkilini mümkünsüz edir və bu təkliflərdə israr edilərsə, Zaqafqaziya hökuməti və Seym dağılacaqdır. Xəlil bəy, A.Çxenkelinin təklifini İstanbula yazacağını bildirməklə bərabər onu da qeyd etdi ki, danışıqların Brest-Litovsk müqaviləsi çərçivəsində aparılması mümkün deyil, Osmanlı hökuməti konfransın ilk iclasında irəli sürüdüyü tələblərdə israrlıdır, Osmanlı ordusunun Culfa dəmir yollarından dərhal keçməsi də hərbi zərurətdir, buna icazə verməyiniz vacibdir, əgər icazə verməsəniz belə, ordu bu yolu zorla keçmək üçün hərəkətə başlayacaqdır [23, v. 46; 20, v. 16-17, 22-26].

Görüşün sonunda A.Çxenkeli Xəlil bəyə bildirdi ki, erməni nümayəndələri də Osmanlı heyət rəhbəri ilə xüsusi olaraq görüşmək istəyirlər. O, xahiş etdi ki, Xəlil bəy erməni nümayəndələrini qəbul edib "türk ordusunun Gümrü-Culfa dəmir yolundan istifadə etməsi" ilə bağlı məsələni onlarla da müzakirə eləsin. Əslində Osmanlı heyətinin Gümrü-Culfa dəmir yolu ilə bağlı tələbi gürcülər tərəfindən də qəbul edilmişdi, bu məsələdə direniş göstərən yalnız ermənilər idi.

Mayın 13-də Xəlil bəy tərəfindən qəbul edilən erməni nümayəndələri Türkiyədən Qafqaza sığınan erməni qaçqınlarının öz yerlərinə geri qaytarılmasını və Aleksandropolla bağlı türk tələbindən imtina edilməsini xahiş etdilər. Onlar bildirdilər ki, Qarsın alınması ilə müharibə dövründə Osmanlı imperiyasından Qafqaza sığınan üç yüz min erməni qaçqınlarına daha yüz əlli min nəfər əlavə olunmuşdur. Evsiz-eşiksiz olan bu yüz minlərlə erməni qaçqını bölgədə anarxiyanı getdikcə artıqmaqdadır. İrandan müxtəlif yollarla Bakıya gələn və müsəlmanların silahlı müxalifətlərinə görə orada sığınacaq tapan erməni qaçqınları da bolşevik cərəyanına qoşulmaqdadırlar. Xəlil bəy, bütün bunların ermənilərin öz xəyanətkar əməllərinin nəticəsi olduğunu vurğuladı və daha sonra sərt bir şəkildə bildirdi ki, "Qafqazda müsəlman kəndlilərini öz yurdlarından çıxarmaq və onların evlərində erməniləri yerləşdirmək niyyəti ilə davam edən erməni təcavüzlərinə qarşı qollarımız bağlı qalmayacaqdır" [23, v. 47; 20, v. 17]. Daha sonra Xəlil bəy, türk qoşunlarının Culfa dəmir yollarından keçməsini qəbul etmələrini və sabaha qədər müsbət cavab verilməzsə ordunun hərəkətə başlayacağını erməni nümayəndələrin diqqətinə çatdırdı. Erməni nümayəndələri özlərinə xoşbəxt gələcək qurmaq üçün Rusiya ilə birləşib Türkiyəyə qarşı müharibə etdiklərini, fəqət Rusiyanın hazırda məhv olduğunu, ingilislərin də ermənilərin düçar olduğu fəlakətə indiyədək heç bir yardım etmədiyini və bunların nəticəsində məğlubiyyətə düçar olduqlarını açıq bir şəkildə etiraf edərək, daşnak partiyasının bundan sonra Türkiyə ilə anlaşıb onun mərhəmətinə sığınmaq haqqında qərar qəbul etdiyini bəyan etdilər. Xəlil bəy, ermənilərin Türkiyəyə qarşı törətdiyi faciəvi hadisələrin unudulması üçün zamana ehtiyac olduğunu, bu zamanı qısaltmaq da ermənilərin öz əllərində olduğunu xüsusi olaraq vurğuladı və daha sonra qeyd etdi ki, Osmanlı hökumətində də ermənilərlə anlaşmaq tərəfdarlarının öz mövqeyini bu xəttə müxalif olanlara qəbul etdirmək üçün





dəlillər olmalı, bu dəlilləri də yaratmaq üçün ilk öncə ermənilər dəmir yollarından türk qoşunlarının keçməsi haqqında təklifimizi qəbul etməli və ingilislərlə əlaqələrini kəsdiklərini qəti bir şəkildə İstanbulda sübuta yetirməlidirlər. Daşnak nümayəndələri Osmanlı dövlətinin ərazi tələbləri ortada ola-ola dəmir yollarından sərbəst istifadə məsələsini həll etmək və bunu partiyalarına qəbul etdirməyin müşkül və qeyri-mümkün olduğunu bəyan etdilər və ermənilərin labüd fəlakət qarşısında belə heç bir vəchlə Aleksandropoldan imtina etməyəcəyini vurğulayıb, Osmanlı heyətini erməni əhalisinin sıx məskunlaşdığı bu bölgə bağlı tələblərindən çəkindirməyə çalışdılar [23, v. 47-48; 20, v. 17-18].

Xəlil bəy daha sonra Azərbaycan nümayəndələrini qəbul etdi. M.Ə.Rəsulzadə ərazi tələbləri ilə bağlı Osmanlı hökumətinin mövqeyini şərh etdi. O, ermənilərin Azərbaycan qəzalarında türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırım cinayətlərinin geniş miqyas aldığını və bolşevik-erməni alyansının əlində əsir vəziyyətdə olan Azərbaycan xalqına Osmanlı yardımının gəlib çıxmamasına narazılığını bildirdi və qeyd etdi ki, "müsəlmanları himayə etmək üçün Osmanlı hökumətinin alicənablıq göstərəcəyini digər partiyalara da qəbul etdirdiyimiz halda, indi onları da aldatmış oluruq" [23, v. 49; 20, v. 19-20]. Daha sonra İstanbul hökumətinin konfransdakı tələbləri üzərində dayanan Məhəmməd Əmin bəy bu tələblərin Azərbaycan üçün doğuracağı acı nəticələri şərh edərək bildirdi ki, "əgər Osmanlı hökuməti öz tələblərində israr edərsə, o halda Zaqafqaziya hökuməti və Seymi dağılacaq. Ermənilər Osmanlı ordusunun önündə qaçaraq Cənubi Qafqazın daxilinə yayılacaqlar. Rus ordusunun bütün silah anbarlarına bunlar sahib çıxıblar. Komandan gürcü olduğundan gürcülər də bundan pay alıblar. Müsəlmanlar da rus ordusundan satın ala bildikləri silah-sursatla az miqdarda silaha sahibdirlər. Bu vəziyyət qarşısında müsəlmanların düçar olacaqları zülüm və faciələri Zaqafqaziya heyətinin müsəlman nümayəndələri adından sizə çatdırmaq istəyirəm. Osmanlı ordusunun bütün Qafqaz ərazisini öz işğalı altına ala biləcəyini ümid etsək, bir qədər təsəlli tapa bilərik" [23, v. 49].

Mayın 14-də İstanbul hökumətinə göndərdiyi teleqramında gürcü, erməni və Azərbaycan nümayəndələri ilə keçirilən görüşlərdə aparılan müzakirələr haqqında geniş məlumat verən Xəlil bəy, sonda qeyd edirdi ki, "şəxsi mülahizələrimə görə, sərhədi cənubdan Araz çayından çəkib, Axıska və Axalkələk qəzalarının da həlelik müstəqil bir dövlət kimi Qafqaz federasiyasına daxil edilməsinə səy göstərməliyik. Dəmir yollarından ordunun daşınmasına tezliklə başlayarıq. Ordu Qafqaza girdikdən və müsəlman qüvvələrini silahlandırıb təşkil etdikdən sonra siyasətimizin tələb etdiyi şəkildə hərəkət etməliyik. Müstəqil olaraq təşəkkül edəcək (hökumətlərlə - V.Q.), xüsusilə də müsəlman hökumətləri ilə siyasi əlaqələrimizi arzu etdiyimiz şəkildə tənzim edə bilərik. Vehib paşa həzrətləri də bu fikrimlə tamamilə razıdır" [23, v. 50; 20, v. 20-21].

Konfrans dövründə Tələt paşa ilə Xəlil bəy, eyni zamanda Ənvər paşa ilə Vehib paşa arasında gedən yazışmalar göstərir ki, istər almanların, istərsə də Zaqafqaziya tərəfinin mövqeyinin necə olmasından asılı olmayaraq, Osmanlı hökuməti Batum konfransına təqdim etdiyi tələblərinin yerinə yetirilməsində qəti və israrlı idi. İstanbuldan Batuma göndərilən təlimatlarda türk heyətindən tələb edilirdi ki, danışıqları çox qısa, qəti və ultimatum şəklində aparsın [23, v. 36-40, 58-59; 20, v. 1, 89; 12]. Bununla paralel olaraq, Baş Komandanlıq Vəkalətindən ordu komandanlığına göndərilən teleqramlarda da Zaqafqaziya hökumətini türk tələblərini qəbul etməyə məcbur etmək üçün Tiflis üzərinə hücuma keçmək əmr edirdi [18]. Nəticədə, 14 may 1918-ci il tarixində Xəlil bəy Batumdakı Zaqafqaziya heyətinə nota verib, İrandan Qafqaz istiqamətində hərəkət edən ingilis qoşunlarına qarşı mübarizə aparmaq üçün türk qoşunlarının Cənubi Qafqaza buraxılmasını tələb etdi [20, v. 22; 29, s. 269-270]. Öz növbəsində Azərbaycan nümayəndələri də Bakı Xalq Komissarları Sovetinin Gəncə istiqamətində hərəkət etməsinin qarşısını almaq üçün türk qoşunlarının Zaqafqaziya ərazisinə daxil olmasına razılıq verilməsini tələb etdilər.

Mayın 15-də A.Çxenkeli Osmanlı heyətinin notasına və başlanan ordu hərəkatına qəti şəkildə etiraz etdi [20, v. 22; 29, s. 271], lakin

bu etirazın elə bir əhəmiyyəti olmadı. 1918-ci il mayın 15-də hücuma keçən türk orduları elə həmin gün Gümrünü tutdular. Gümrünün tutulması ilə türk ordularının qarşısında olan iki yol – cənub istiqamətində İrəvan-Culfa dəmir yolu və şərq istiqamətində Qarakilsə-Tiflis-Bakı yolu açılmış oldu. Gümrünün tutulmasından sonra A.Çxenkeli Osmanlı heyətinə təqdim etdiyi 15 may tarixli etiraz notasını Türkiyənin müttəfiqlərinə də göndərdi [29, s. 278]. Eyni zamanda, şəhərin tutulması ilə bağlı mayın 17-də yenidən Osmanlı heyətinə etiraz notası təqdim etdi [29, s. 278-280].

Zaqafqaziya heyətinin bəyannamə şəklində Osmanlı heyətinə təqdim etdiyi 13 may 1918-ci il tarixli təkliflərinə türk tərəfi mayın 15-də nota ilə cavab verdi. Notada Zaqafqaziya nümayəndə heyətinin irəli sürdüyü təkliflərə etiraz edilir və bildirilirdi ki, Osmanlı hökuməti Brest-Litovsk müqaviləsini indiki danışıqlar üçün yeganə əsas kimi qəbul etmir, eyni zamanda müttəfiq dövlətlərdən hansının bu müqaviləni necə və hansı formada imzalayıb-imzalamayacağı, həmçinin Avstriya-Macarıstan və Bolqarıstanın bu müqaviləyə qoşulması məsələsi də müttəfiqlərin öz daxili işidir [29, s. 272-273].

May ayının ortalarından başlayaraq Zaqafqaziya nümayəndə heyəti ilə Osmanlı heyəti arasında notalar mübadiləsi intensiv xarakter aldı. Bu notalarda Zaqafqaziya tərəfi bir sıra əsaslar gətirərək, danışıqların Brest-Litovsk sülhü əsasında aparılmasında israr edir, Türkiyənin müttəfiqlərinin də müzakirə cəlb edilməsini və müqavilənin Dördlər İttifaqı ölkələri ilə Zaqafqaziya Respublikası arasında imzalanmasını tələb edir və tərəflər arasında Almaniyanın vasitəçiliyinə nail olmağa çalışırdı [29, s. 273-277, 281-282, 284-287]. Osmanlı tərəfi isə Zaqafqaziya heyətinin Trabzon danışıqlarında Türkiyənin Brest-Litovsk sülhü ilə bağlı tələblərini qəbul etməyib müharibəyə rəvac verdiyini, bu müharibədə türk əsgərinin öz qanı bahasına Ərdəhan, Batum və Qarsı əldə etdiyini əsas gətirərək, Brest müqaviləsini danışıqlar üçün yeganə əsas kimi qəbul etmədiyini və qan bahası olaraq əlavə ərazilər tələbində əsrar edir, Osmanlı dövlətinin müttəfiqlərinin danışıqlara cəlb edilməsini qəbul etmir və danışıqların yalnız Türkiyə ilə Zaqafqaziya arasında aparılmasını tələb edirdi [29, s. 272-273, 282-283, 288-290]. Tərəflərin öz mövqeyində israr etməsi və heç bir güzəştə getmək istəməməsi danışıqların uzanmasına gətirib çıxarmışdı. Buna görə də Xəlil bəy, A.Çxenkeliyə təqdim etdiyi 18 may 1918-ci il tarixli notasında Zaqafqaziya heyətinin irəli sürdüyü təkliflərin hüquqi cəhətdən əsassız olduğunu əsaslandırır və qəti şəkildə bildirirdi ki, Zaqafqaziyanın israrlı mövqeyi danışıqların nəticələrinə ciddi şəkildə təsir edə bilər [29, s. 288-290].

Zaqafqaziya nümayəndə heyətinin müzakirələrin, xüsusilə də Osmanlı dövlətinin ərazi tələbləri ilə bağlı danışıqların Brest-Litovsk müqaviləsi çərçivəsində aparılmasında israr etməsi əslində Lossovun tövsiyyələri ilə bağlı idi, çünki almanlar gürcü və erməni nümayəndələri ilə apardıqları gizli danışıqlarda onlara Brest müqaviləsində israr etməyi və bu müqavilənin müəyyən etdiyi sərhədlərdən əlavə Osmanlı ərazi tələblərini qəbul etməməyi tapşırmışdılar [23, v. 46-50].

Dünya müharibəsində müttəfiq olmalarına baxmayaraq, Almaniya Osmanlı dövlətini Qafqazda özünə əsas rəqib kimi görür və bütün vasitələrlə Batum danışıqlarını pozmağa, nəticədə tərəflər arasında vasitəçilik edib əsas söz sahibi olmağa can atırdı. Bunun nəticəsi idi ki, Osmanlı və Zaqafqaziya heyətləri arasında intensivləşən notalar mübadiləsində tərəflərin öz mövqelərində israr etdiyi və danışıqların dalana dirəndiyi zaman, mayın 19-da Lossov A.Çxenkeliyə məktubla müraciət edib Türkiyə ilə Zaqafqaziya arasında danışıqlarda özünün vasitəçilik etməsini təklif etdi [29, s. 293]. Elə həmin gün axşam Zaqafqaziya nümayəndə heyəti iclas keçirib Lossovun məktubunu müzakirə etdi. Müzakirələrin gedişində məlum oldu ki, vasitəçilik məsələsi almanlarla gürcülər arasında qabaqcadan razılaşdırılmışdır. Gürcü və erməni nümayəndələri Osmanlı dövlətinin tələblərindən müdafiə olunmaq üçün Almaniyanın vasitəçilik təklifini bir fürsət hesab edib qəbul etməyi təklif etdilər. Azərbaycan nümayəndələri isə, bunun yalnız Türkiyə və Almaniya arasında razılıqdan sonra mümkün olacağı fikrini irəli sürüb, əslində Almaniyanın vasitəçiliyi məsələsinin əleyhinə çıxdılar. Azərbaycan nümayəndələrinin etirazlarına baxmayaraq, Zaqafqaziya heyəti Almaniyanın vasitəçiliyini qəbul etdi və dərhal bu barədə Lossovu məlumatlandırdı [29, s. 301-302].

Lossov mayın 21-də A.Çxenkeliyə nota ilə müraciət edib bildirdi ki, Sovet Rusiyası da Almaniyanın Batum danışıqlarında vasitəçiliyini qəbul etmişdir. Bundan başqa notada göstərilirdi ki, Sovet Rusiyası Suxumi və Bakı istiqamətindən Zaqafqaziyaya qarşı geniş hərbi əməliyyatlar keçirməyi planlaşdırır və Almaniya hökuməti ona bu planlardan əl çəkməyi təkidlə məsləhət görür [29, s. 302-303]. Əslində bəhs edilən dövrdə daxildə vətəndaş müharibəsi aparan Sovet Rusiyası Cənubi Qafqazda gedən siyasi və hərbi proseslərə hər hansı fəal müdaxilə etmək iqtidarında deyildi. Lossov məsələni bu şəkildə qoymaqla Almaniyanın vasitəçiliyini tərəflərə qəbul etdirməyə çalışırdı.

Zaqafqaziya heyətinin Almaniyanın vasitəçili ilə bağlı qəbul etdiyi qərar barəsində Azərbaycan nümayəndələrindən məlumat alan Xəlil bəy mayın 24-də Almaniyanın vasitəçiliyinə qəti surətdə etiraz etdi və bunu qəbul etmədi [29, s. 306]. Almanlar bu etirazın alman-türk münasibətlərinin kəsiləcəyinə səbəb olacağını bildirsələr də, bunun elə bir əhəmiyyəti olmadı. Türkiyənin sərt mövqeyi qarşısında Lossov geri çəkilməli oldu. Osmanlı hökuməti almanların Qafqazla bağlı planlarının Türkiyəyə qarşı olduğunu və "vasitəçilik" təkliflərinin də məhz bu planlara xidmət etdiyini yaxşı anlayırdı. Çünki Tələt paşa ilə Xəlil bəy arasındakı gedən yazışmalarda mayın ortalarında tam gerçəkliyi ilə məlum olmuşdu ki, Almaniya hökuməti Lossova Qafqazla bağlı İstanbul hökumətinə verdiyi təminatlara əks bir təlimat göndərmişdir. Ona görə də sədrəzəm Tələt paşa Xəlil bəyə göndərdiyi 16 may 1918-ci il tarixli təlimatında "almanların Qafqaz məsələsinə müdaxilə etmək üçün vasilə axtardıqlarını və bu vasiləni ən çox müzakirələrdə tapacaqlarını" vurğulayıb, buna imkan verilməməsi üçün Zaqafqaziyaya 24 saatlıq bir ultimatum verib məsələni tezliklə həll etməyi tapşırırdı [23, v. 58-59].

May ayının ortalarından etibarən Zaqafqaziya heyəti ilə Osmanlı heyəti arasında rəsmi notalar mübadiləsi getsə də, A.Çxenkeli Xəlil bəylə təklikdə keçirdiyi görüşlərdə ancaq gürcülərin maraqlarını təmin etməyə çalışırdı. Gürcüləri açıq-aşkar müdafiə edən və onlarla gizli danışıqlar aparan alman heyəti də Osmanlı tələblərində yer alan gürcü ərazilərinə xüsusi əhəmiyyət verir, müsəlman və erməni məsələləri ilə o qədər də maraqlanmırdı. Osmanlı-gürcü danışıqlarında Türkiyənin Brest-Litovsk sülhünün şərtlərindən əlavə tələb etdiyi ərazilərdən əsasən Axalsıx (Axıska) qəzasının ərazisi müzakirə mövzusu idi. Gürcülər "Axalsıxa sahib olanın Tiflisə də hakim olacağı" tezisindən çıxış edərək, adı çəkilən qəzanın Türkiyəyə verilməsinə qarşı çıxırdılar [20, v. 12]. Gürcüləri razı salıb qazanmaq tərəfdarı olan Xəlil bəy də Osmanlı hökumətinə təklif edirdi ki, Axıska və Axalkələk qəzaları hələlik müstəqil bir dövlət kimi Qafqaz federasiyasına daxil edilsin [23, v. 50]. Lakin Ənvər paşa Axalsıx qəzasında yaşayan əhalinin əksəriyyətinin türk-müsəlman olduğunu və onların Osmanlı dövlətinə ilhaq olunmaq üçün müraciət etdiklərini əsas gətirərək, bu fikrin əleyhinə çıxdı. Nəticədə, Axalsıxın gürcülərə güzəştə gedilməsi fikri qəbul edilmədi.

Bununla belə, Osmanlı sədrəzəmi Xəlil bəyə göndərdiyi 16 may 1918-ci il tarixli teleqramında təlimat verirdi ki, "gürcüləri əldə edərək tezliklə işi bitirsin" [23, v. 57]. Amma bu təlimatda göstərilmirdi ki, hansı ərazi güzəştləri və nəyin müqabilində gürcülər əldə edilsin. Osmanlı hökuməti bir tərəfdən erməni-gürcü ittifaqının yaranmasına imkan verməmək üçün gürcüləri özündən narazı salmaq istəmir, digər tərəfdən isə gürcülərə yönələn ərazi tələblərinin heç birindən imtina etmək istəmirdi. Mövcud şərtlər altında "gürcüləri əldə etmək" təlimatını alan Xəlil bəy üçüncü bir yol seçməli oldu ki, bu da gürcüləri məmnun etmək üçün Azərbaycan torpaqlarından onlara müəyyən ərazilərin verilməsindən ibarət idi. Xəlil bəy mayın 17-də M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə görüşüb bu barədə danışıqlar apardı və Azərbaycan nümayəndələrinə təklif etdi ki, "gürcüləri məmnun etmək üçün onlara bir qədər ərazi versinlər" [23, v. 79]. Xəlil bəy mayın 18-də Tələt paşaya göndərdiyi teleqramında bu barədə

məlumat verir, eyni zamanda Türkiyənin də Axalkələk qəzasından gürcülərə müəyyən ərazi güzəştləri edilməsi fikrini irəli sürürdü. Teleqramda deyilirdi: "Gürcüləri əldə etmək üçün müsəlman nümayəndələrinə gürcüləri bir az ərazi verərək məmnun etmələrini tövsiyyə etdim. Biz də Axalkələk qəzasından onlara bir az bir şey versək, gürcüləri tamamilə qazanacağımızı, erməniləri yalnız buraxacağımızı və bununla da işimizi rahatlıqla görəcəyimizi ümid edirəm. Nə buyurulur?" [23, v. 79]. Lakin İstanbul hökuməti Axalkələk qəzasından gürcülərə ərazi güzəştləri verilməsi təklifini qəbul etmədi. Xəlil bəyin adı çəkilən qəzada yaşayan əhalinin böyük əksəriyyətinin erməni olması ilə bağlı irəli sürdüyü arqumentlər də İstanbul hökumətinin qərarına təsir etmədi.

Qeyd etdiyimiz kimi, Batum konfransının ilk ümumi iclasından sonra türk tələblərinə münasibətdə Zaqafqaziya heyətində, eyni zamanda Tiflis Seymində meydana çıxan ziddiyyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni nümayəndələrinin isə Almaniyaya sığınmasına gətirib çıxarmışdı. Bu şərtlər altında konfransın ilk ümumi iclasından sonra Zaqafqaziya heyəti ilə Osmanlı heyəti arasında danışıqlar yalnız notalar mübadiləsi şəklində davam edir, əsas müzakirələr isə Osmanlı heyəti ilə Zaqafqaziya heyətinin gürcü, azərbaycanlı və erməni nümayəndələri ilə ayrı-ayrılıqda aparılırdı. Mövcud şərtlər daxilində Zaqafqaziya Federasiyasının mövcudluğu sual altında qalmışdı. Gürcülər Almaniya ilə apardıqları gizli danışıqların yekunu olaraq, almanların tövsiyyəsi ilə Zaqafqaziya Seymindən çıxıb müstəqilliklərini elan etmək fikrinə gəldilər. Gürcülərin müstəqilliyə olan meyli Osmanlı heyətinə məlum idi. Lakin Xəlil bəy Zaqafqaziya Federasiyasının parçalanmasının tərəfdarı deyildi. O, fikrini belə əsaslandırırdı ki, Qafqaz federsiyasının qorunub saxlanılması ona görə vacibdir ki, bu formul ümumi sülh zamanı dünya tərəfindən dəstəklənəcək və Polşa kimi Qafqazın istiqlalı da bütün İttifaq dövlətləri tərəfindən müdafiə ediləcəkdir [23, v. 105]. Buna görə də Xəlil bəy mayın 20-də A.Çxenkeli ilə keçirdiyi görüşdə təklif etdi ki, əgər ermənilər türk tələblərini qəbul etməyə yanaşmasalar, o zaman gürcülər azərbaycanlılarla birlikdə ermənilərsiz konfederasiyanı qoruyub saxlasınlar [20, v. 45-46]. Lakin A.Çxenkeli bu təklifi qəbul etmədi.

Çünki hələ 14 may 1918-ci il tarixində gizli keçirilən gürcü Milli Şurasının iclasında belə bir qərar qəbul edilmişdi ki, general Lossov vasitəsilə Gürcüstana qəyyumluq göstərmək üçün Almaniya hökumətinə müraciət edilsin. Əslində Milli Şuranın bu iclası keçiriləndə Berlinə getmiş gürcü nümayəndələri Gürcüstanı himayədarlığa götürmək barədə Almaniyanın razılığını almışdılar. Ona görə də Milli Şuranın iclası formal şəkildə bu razılığı rəsmiləşdirməli idi. Milli Şuranın qərarında göstərilirdi: 1. Alman sülh nümayəndə heyətinin başçısı general fon Lossova məlumat verilsin ki, gürcü Milli Şurası Gürcüstanın dövlət-siyasi və beynəlxalq məsələlərdə Almaniya tərəfindən müdafiə edilməsi arzusundadır; 2. Lossovdan xahiş edilsin ki, alman ordusu Şimali Qafqazdan Türkiyə sərhədlərinə doğru yolunu davam etdirsin və Gürcüstanı xarici təhlükədən qorumaq barədə onlarla saziş imzalansın; 3. Lossovdan xahiş edilsin ki, Almaniyadakı gürcü hərbi əsirlərinin tezliklə vətənə qayıtmasını təşkil etsin; 4. Lossovdan xahiş edilsin ki, əgər mümkünsə, alman hərbi əsirlərinin və zabitlərinin Gürcüstanda qalıb hərbi birləşmələr formasında təşkil olunmasına göstəriş versin və gürcü hökuməti bu qüvvədən anarxiyaya qarşı mübarizə və daxili qayda-qanunu bərqərar etmək üçün istifadə etsin [5, s. 85-86].

General Lossovla gizli danışıqlar aparmaq üçün menşeviklərin lideri N.Jordaniya başda olmaqla komissiya yaradıldı. Eyni zamanda almanlar da Türkiyənin sərt mövqeyi qarşısında heç olmasa Gürcüstanı öz nəzarətində saxlamaq və türklərə qarşı qorumağa çalışırdılar. Təsadüfi deyil ki, bu zaman Almaniyanın Batum heyətinin Tiflisdə olan üzvü Şulenburq Lossova bildirirdi ki, "nəyin bahasına olursa olsun, heç olmasa Gürcüstanı əlimizdə saxlamalıyıq. Əks təqdirdə Qafqazın digər hissələri də tez və ya gec əlimizdən çıxacaqdır" [32, s. 58]. Batumda aparılan alman-gürcü danışıqları zamanı Lossov bildirdi ki, Almaniya bir şərtlə Gürcüstana qəyyumluğu öz üzərinə götürür ki, o, Zaqafqaziya Federasiyasının tərkibindən çıxıb özünün





müstəqilliyini elan etsin. Almanların diktəsi ilə hərəkət edən gürcülər artıq may ayının 22-də Gürcüstanın müstəqilliyini elan etmək haqqında qəti qərara gəldilər. Hətta Z.Avalov tərəfindən Gürcüstanın müstəqilliyinin elan edilməsi haqqında aktın layihəsi də hazırlandı və bu layihə A.Çxenkeli, N.Nikoladze, N.Jordaniya və P.Surquladze tərəfindən məqbul hesab edildi. N.Jordaniya mayın 25-də Batumdan Tiflisə gedərkən bu sənədi də özü ilə apardı. Qeyd edək ki, bu sənəd 26 may 1918-ci il tarixində qəbul edilən "Gürcüstanın müstəqillik aktı" oldu [27, s. 58]. Mayın 23-24-də Batumda aparılan gizli alman-gürcü görüşlərində Batum limanı, dəmir yolları və ümumilikdə Gürcüstan ərazisi ilə bağlı almanlara bir sıra imtiyazlar verilməsi barədə razılıq əldə edildi. Bütün bu razılaşmaları reallığa çevirmək üçün Gürcüstanın müstəqilliyinin elan edilməsi lazım idi. Buna görə də A.Çxenkeli mayın 24-də gürcü Milli Şurasının sədrinə göndərdiyi teleqramında yazırdı: "Müstəqilliyin elan edilməsinin yubadılması gözlənilən nəticələr verə bilər. Almanların vasitəçi olmaq cəhdi baş tutmadı. Bir şey qalır, türk müdaxiləsinə qarşı Almaniyanın müdafiə etdiyi müstəqil Gürcüstanı qoymaq. Gürcüstan hökumətində alman nümayəndəsi qraf Şülenburq olacaqdır. Almaniya ilə bir sıra müvəqqəti sazişlər imzalanmaq üçün hazırdır" [27, s. 59].

May ayının 25-də Lossov A.Çxenkeliyə məktub göndərərək bildirdi ki, etibarlı mənbələrdən aldığı məlumatlar Zaqafqaziya Federasiyasının artıq parçalanmaq ərəfəsində olduğundan xəbər verir. Onun səlahiyyəti yalnız Zaqafqaziya Federasiyası ilə danışıqlara aid olduğundan o, yeni səlahiyyətlər almaq məqsədilə Berlinə yola düşür [20, v. 76; 29, s. 307]. Elə həmin gün axşam Lossovun başçılıq etdiyi alman nümayəndə heyəti "Minna Horn" gəmisində Batumu tərk etdi. Amma Almaniyaya getmək adı ilə Batumdan ayrılan Lossov Berlinə deyil, Potiyə gəldi [32, s. 61]. Lossovun başçılıq etdiyi alman heyətinin Potiyə getməsini Batumdakı gürcü nümayəndələrindən başqa kimsə bilmirdi. Çünki, Batumda aparılan gizli alman-gürcü danışıqlarında əldə edilən razılaşmalar və hazırlanan müqavilə layihələri tərəflər arasında burada – Potidə imzalanacaqdı. Bunun üçün isə Lossov, gürcülərin Zaqafqaziya Seymindən çıxıb Gürcüstanın müstəqilliyini elan etmələri və Potiyə heyət göndərmələri üçün daha bir neçə gün gözləməli oldu.

Türklər ultimatum verildikdən sonra Zaqafqaziya Seyminin dağılacağı qənaətinə gəlmişdilər, amma ultimatum verilməmişdən əvvəl belə bir hadisənin baş verməsini yəqin etməmişdilər. Mayın 24-25-də Xəlil bəy ilə Tələt paşa arasında teleqramla aparılan məsləhətləşmələrdə əsas mövzulardan biri də ultimatum verildikdən sonra Zaqafqaziya Seyminin dağılacağı təqdirdə Osmanlı hökumətinin necə bir siyasət yeritməsi ilə bağlı idi. Xəlil bəy Tələt paşaya göndərdiyi 24 may 1918-ci il tarixli növbəti teleqramında ultimatum verildikdən sonra baş verə biləcək hadisə və proseslər haqqında öz ehtimal və mülahizələrini bölüşür və yaranmış vəziyyətdə Zaqafqaziya Federasiyasının dağılması halında atılacaq addımlarla bağlı təlimat verilməsini istəyirdi. O qeyd edirdi ki, "bu halda gürcülər öz sərhədləri daxilində Qafqazın onlara aid qismi haqqında ayrıca sülh imzalayacaqlar. Bunun üçün onlar artıq qərarlarını vermişlər və bəlkə də buradakı gürcü nümayəndələrinə lazımi etimadnamələr də vermişlər və ya başqa heyət göndərəcəklər. Ermənilər isə zənn etdiyimə görə şübhəsiz ki, sülh imzalamaqdan yayınacaqlar və işlərini gələcəyə saxlayacaqlar" [23, v. 116]. Yaranmış vəziyyətdə Azərbaycanla bağlı "müsəlman nümayəndələrlə də sülh imzalamaq və ya Azərbaycanı işğal etmək" siyasətlərindən hansını yeritmək haqqında sədrəzəmdən təlimat istəyən Xəlil bəy yazırdı: "Bu halda Qafqazın gürcülərə ayrılacaq qismindən əlavə digər qismi üçün də müsəlmanlarla sülh imzalayarıq və yaxud sülhdən vaz keçərək bu ərazini işğal edərik. Müsəlman əhali əsasən ilhaq tərəfdarı olduğundan bu qərarımızı məmnuniyyətlə qarşılayacaq və Osmanlı ordusunun onları bolşevik-erməni təcavüzündən mühafizə etməsini böyük bir nemət sayacaqdır. Bu iki yoldan hansı biri seçiləcəksə, indidən bu barədə təlimat verilməsini xahiş edirəm" [23, v. 116]. Xəlil bəy daha sonra qeyd edirdi ki, müsəlman nümayəndələr ilə sülh bağlasaq və yaxud əhalinin arzusu ilə Qafqazı işğal etsək, hər iki halda müsəlman əhali ilə

ermənilər arasında qisasçılıq zəminində kin və düşmənçilik şiddətlənə bilər, çünki müsəlman əhali son zamanlar ermənilərin ən dəhşətli qətl, zülm və işgəncələrinə məruz qalmışdır. Bunun qarşısını almaq üçün qısa zamanda qüvvətli bir polis təşkilatı yaratmaq mümkün olmadığından, istər bizdə, istərsə də qarşı tərəfdə qalacaq ermənilər yaşayan yerləri ümumi sülhün sonuna qədər hərbi işğal altında saxlamaq məcburiyyətində qalacağıq [23, v. 117].

Xəlil bəy, eyni zamanda sədrəzəmə təklif edirdi ki, Osmanlı hökuməti bolşevik-erməni təcavüzündən cana doymuş Cənubi Qafqaz müsəlmanlarının ilhaqla bağlı müraciətlərinə aldanmamalı, Rusiyanın da bir gün ayağa durub bölgəyə hakim olmağa çalışacağını diqqətə alıb məntiqli davranmalı və Qafqaz konfederasiyasının qorunub saxlanılmasına çalışmalıdır. Lakin sədrəzəm, Xəlil bəyə göndərdiyi cavab teleqramında bildirdi ki, "əgər Rusiya əski dəhşətiylə mövcud olsaydı, buyurduğunuz Qafqazı təşkil etmək üçün hər cür fədakarlıq etmək lazım olacaqdı. Fəqət bu gün bizim düşünəcəyimiz cəhət o bölgədə qüvvətli olmaq, yaranmış vəziyyətdən istifadə etmək və Qafqazda cərəyan edən siyasətin göstərəcəyi inkişaf dairəsində hərəkət etməkdir" [23, v. 113].

Bununla yanaşı Xəlil bəy, Tələt paşaya göndərdiyi 24 may 1918-ci il tarixli növbəti teleqramında Osmanlı hökumətinin Qafqazla bağlı aydın bir proqramının olmamasından və bu qədər mühüm bir məsələnin həllində proqramsız hərəkət edildiyindən gileylənir, Rusiyanın bu gün əski dəhşətiylə mövcud olmasa da, sabah mövcud olacağını nəzərə almağı tövsiyə edir və buna görə də hər şeydən əvvəl Qafqazın beynəlxalq vəziyyətini aydınlaşdırmağı və burada üç hökumətdən ibarət konfederasiya yaratmağı, bu konfederasiyanın Türkiyə ilə əlaqəsinin ittihad və ya digər formada qurulması məsələsini sonraya saxlamağı uyğun hesab edir, daha sonra bildirirdi ki, bu formulda Qafqazın beynəlxalq aləmdə tanınması mümkün olacaq, yox əgər, ilhaqa tələssək, məhrumiyyətlərə düçar olacağımıza şək-şübhə yoxdur [23, v. 119-120].

Tələt paşa Xəlil bəyə göndərdiyi 25 may 1918-ci il tarixli teleqramında türk ultimatumu qarşısında Zaqafqaziya Seyminin dağılacağı təqdirdə gürcü və müsəlmanlarla ayrı-ayrılıqda dostluq müqavilələrinin imzalanması təlimatını verdi və əlavə olaraq bildirdi ki, Osmanlı ordusu intizamı təmin və hökuməti təşkil etmək üçün Qafqaza girdikdən və hökumət təşkil edildikdən sonra Dövlət-i Aliyyə ilə münasibətləri təyin edərik [23, v. 122].

Elə həmin gün Xəlil bəyə göndərdiyi növbəti teleqramında Tələt paşa yazırdı: "Bu günə qədər olan yazışmalarımızdan son şifrənizi Məclis-i Ümumidə oxuduq və uzun-uzadı müzakirə etdik. Son ərz etdiyim şəkildə ittifaq hasil oldu. Yəni dərhal ultimatum vermək və qəbul etmədikləri təklifləri silah gücünə qəbul etdirmək.

Əgər gürcülər ayrı və müstəqil bir hökumət təşkil edərlərsə, onlarla ayrıca müzakirə aparırıq. Şimali və Cənubi Qafqaz müsəlmanlarının da ayrıca müstəqil bir hökumət təşkil etməsi uyğundur, müstəqilliklərinin formatını və (Türkiyə ilə - V.Q.) əlaqələrinin təyinini sonradan düşünərik. Erməni məsələsi həll edildikdən sonra gürcülərlə müsəlmanların birləşmə imkanı vardır və indidən bu istiqamətdə çalışa bilərsiniz" [23, v. 126-127].

Qeyd edək ki, bu zaman Xəlil bəy Zaqafqaziya Federasiyası dağıldığı təqdirdə "İrəvanın kanton qismində" erməni dövlətinin yaradılmasına sədrəzəmi razı salsa da, Ənvər paşa qəti şəkildə bu məsələyə qarşı çıxırdı. Ənvər paşa Osmanlı ordusunun İrəvan, Gəncə və Bakıya yeridilməsi və Gürcüstan xaricində bütün Qafqazın Osmanlı ordusunun nəzarəti altına alınması, Cənubi və Şimali Qafqaz müsəlmanlarını birləşdirib bölgədə Osmanlı dövlətinin himayəsi altında böyük bir müsəlman dövləti yaratmaq mövqeyində israr edirdi. O, mayın 25-də Vehib paşaya göndərdiyi təlimatda bildirirdi: "...Cənubi Qafqaz hökumətinə iyirmi dörd saatlıq bir ultimatum veriləcəyindən bəhs etmişdim. Xəlil bəydən aldığım məlumata görə, əgər ermənilər bu ultimatumu qəbul etməyərək dağılarsa, onda gürcülər dərhal müstəqil bir hökumət təşkil edərək bizimlə sülh bağlayacaqlar. Hər ehtimala qarşı da lazımi etimadnamələrini gətirmişlər. Hərbi qüvvələrin bir yerə yığılmasını tövsiyə etməkdə məqsədim belə bir sülh bağlanıldığı halda sərbəst qalacaq qüvvələrdən





Bakıya və ya cənuba (ingilislərə – V.Q.) qarşı istifadə etmək imkanını yaratmaq üçün, bu qüvvələrin toplu halında və istirahət etdirilmiş olaraq saxlanılmasını bildirmək idi. Bununla yanaşı, bu ordunun bir tərəfdən Gəncə, digər tərəfdən də İrəvana toplu sövq edilərək, bir an əvvəl hədəflərinə çatması mühüm olan qüvvələrin hərəkətına təsir etməməsi lüzumunu da əlavə edirəm" [15].

Ənvər paşa mayın 26-da Vehib paşaya göndərdiyi növbəti təlimatında isə yazırdı: "Gürcülər istiqlallarını elan etdikləri halda Cənubi Qafqaz müsəlmanlarının da mərkəzi Gəncə olmaq üzrə istiqlal elan edərək, Osmanlı dövləti ilə bir ittifaq müqaviləsi bağlamaq arzusunda olduqlarını Xəlil bəyəfəndiyə müraciətlə hökumət-i Səniyyəyə təbliğ eyləmələri ən müvafiq olur. Şimali Qafqaz müsəlmanları da əsasən bu şəkildə müstəqil olaraq istədikləri formada Cənubi Qafqaz müsəlmanları ilə birləşərək, daha güclü bir müsəlman kütləsi vücuda gəlmiş olur. Ermənilərə gəlincə, bunların Qafqaz (burada birləşmiş Azərbaycan və Dağıstan nəzərdə tutulur – V.Q.) və gürcü hökumətləri arasında bölüşdürülməsini və əllərində cüzi bir əsgəri qüvvənin belə qalmamasını uyğun görürəm. Bununla belə, bu mənim şəxsi fikrimdir, Xəlil bəyə hökumət tərəfindən bu haqda təlimat veriləcəkdir. Gürcülərlə sülh danışıqlarının davamı dövründə də Tiflisə doğru hərbi hərəkatın dayandırılmamasını, bununla yanaşı, gürcülərlə əvvəlki şərtlər daxilində tezliklə müqavilə bağlanmasını əhəmiyyətlə rica edirəm" [16].

Zaqafqaziya Federasiyası dağıldığı təqdirdə Qafqazın statusu və Osmanlı dövləti ilə əlaqəsi məsələsində Tələt və Ənvər paşalar arasında mövcud olan fikir ayrılığı Batumdakı Osmanlı heyəti daxilində də mövcud idi. "Osmanlı dövlətinin dördüncü adamı" hesab olunan, böyük nüfuz sahibi və sədrəzəmlə səmimi dost münasibətlərində olan Xəlil bəy gətirdiyi arqumentlərlə öz mövqeyini Tələt paşaya da qəbul etdirə bilmişdi. Lakin Ənvər paşa da öz mövqeyində güzəştə getmək fikrində deyildi. Ənvər paşanın yuxarıda göstərdiyimiz direktivlərini rəhbər tutan Vehib paşa, Qafqaz konfederasiyası məsələsində Xəlil bəyin mövqeyini bölüşmür, Cənubi Qafqazın Osmanlı dövlətinə ilhaq edilməsi mövqeyindən çıxış edir və baş komandan vəkilinə göndərdiyi teleqramlarında da bunu təkidlə xahiş edirdi [17].

Bütün bunlara baxmayaraq, Xəlil bəy sədrəzəmdən aldığı son təlimat əsasında 26 may 1918-ci il tarixində Zaqafqaziya heyətinə veriləcək ultimatumu hazırladı və elə həmin gün, axşam saat 20:00-da Zaqafqaziya nümayəndə heyətinə təqdim etdi. Ultimatumda Türkiyənin may ayının 11-də irəli sürdüyü əsas tələbləri ilə yanaşı bir sıra yeni tələblər də yer almışdı ki, bunların da qəbul edilib-edilməyəcəyi ilə bağlı 72 saat ərzində cavab verilməsi tələb edilirdi [29, s. 309-310].

Tiflisdə baş verən hadisələrdən xəbərsiz olan Osmanlı heyəti Zaqafqaziya heyətinə son ultimatumunu 26 may 1918-ci il tarixində axşam saat 20:00-da vermişdi [29, s. 309-310, 339]. Z.Avalov Zaqafqaziya heyətinin bu ultimatumu axşam saat 21:00-da aldığını yazır [27, s. 61]. Bu ultimatum verilən vaxt artıq artıq 5 saat idi ki, Zaqafqaziya Federasiyası mövcud deyildi.

Belə ki, almanların tövsiyyəsi ilə gürcülərin öz müstəqilliklərini elan etmək haqqında qəti qərara gəlməsi artıq Zaqafqaziya Federasiyasının dağılmasını labüd etmişdi. 1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi və burada Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra saat 15-də Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi [29, s. 317-330, 331]. Elə həmin gün saat 17-də gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi və Noy Ramişvili başçılığı ilə ilk gürcü milli hökuməti yaradıldı [29, s. 332-338, 339; 27, s. 61]. A.Çxenkeli də bu hökumətdə xarici işlər naziri vəzifəsini tutdu. Mayın 27-də A.Çxenkeli, N.Ramişvili, N.Nikoladze və Z.Avalovdan ibarət gürcü heyəti Potiyə gəlib, general Lossovun rəhbərlik etdiyi alman heyəti ilə Batumda başladığı danışıqları davam etdirdi. Mayın 28-də Gürcüstan Almaniya ilə aparılmış Poti danışıqlarının yekunu olaraq hazırlanmış müqavilə və sazişləri imzaladı və bununla da Almaniyanın qəyyumluğunu qəbul etdi. Bu müqavilə və sazişlərə görə Gürcüstanın dəmir yolları, limanları və təbii sərvətləri Almaniyanın nəzarətinə keçirdi. Bunun əvəzin-

XƏBƏRLƏR • TRANSACTIONS • ИЗВЕСТИЯ

də isə Almaniya Gürcüstanın müstəqilliyini tanıyır və onun Sovet Rusiyası tərəfindən tanınması üçün yardım göstərməyi vəd edirdi. Həmçinin Gürcüstanın sərhədlərinin müəyyən edilməsi və onun qonşu dövlətlərlə münasibətlərinin qurulmasında da Almaniya köməklik göstərməli idi [32, s. 61-62; 26, s. 572]. Qraf Şulenburq Almaniyanın Tiflisdə müvəqqəti təmsilçisi, diplomat Anders Potidəki alman konsulu, polkovnik Kress von Kressenşteyn isə Almaniyanın Tiflisdəki hərbi missiyasının rəhbəri təyin edildi. İyunun əvvəllərindən etibarən ilk alman hərbi birlikləri Tiflisə gəldilər. Potidə imzalanan müqavilə və sazişləri Almaniya hökuməti nəzdində rəsmiləşdirmək üçün A.Çxenkelinin rəhbərlik etdiyi gürcü heyəti də Lossovla birlikdə Potidən Berlinə yola düşdü [26, s. 571-572]. Bununla da, bütün Qafqazı öz nüfuz dairəsinə salmağa çalışan Almaniya, Türkiyənin sərt mövqeyi qarşısında bu istəyinə yalnız Gürcüstan hüdudlarında nail ola bildi.

Hələ may ayının 25-də gürcülərin müstəqillik elan etmək haqqında qəti qərara gəldiyini eşidən Seymin Müsəlman fraksiyası elə həmin gün iki dəfə, səhər və axşam iclas keçirdi. X.Məlik-Yeqanovun sədrliyi ilə keçirilən səhər iclasında bildirildi ki, etibarlı mənbələrdən alınan məlumata görə, gürcü fraksiyası Batumda olan gürcü nümayəndələri ilə birlikdə Gürcüstanın ayrılmasına və müstəqilliyini elan etməsinə dair almanlarla gizli danışıqlar aparırlar. Gürcü Milli Şurasının Rəysət Heyətinin üzvü Q.Veşapeli Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının katibi, Seym üzvü Rəhim bəy Vəkilovla söhbətində bu barədə məlumat verib. Müzakirələrdə qeyd edildi ki, Gürcüstanın ayrılması məsələsi demək olar ki, həll edildiyindən Seymin Müsəlman fraksiyası bu akta hazır olmalıdır. Sonda Seymin bütün Müsəlman fraksiyası belə bir prinsipial qərara gəldi ki, "əgər Gürcüstan ayrılıb öz müstəqilliyini elan edərsə, o zaman Azərbaycan da öz müstəqilliyini elan edəcəkdir" [3, v. 43].

Seymin Müsəlman fraksiyasının mayın 25-də F.X.Xoyskinin sədrliyi ilə keçirilən axşam iclasında Gürcüstanın Seymdən ayrılacağı təqdirdə Azərbaycan fraksiyasının vəzifələri məsələsi müzakirə edildi. İclas açılan kimi fraksiya üzvləri F.X.Xoyskidən xahiş etdilər ki, o elə indi Seymin sədri N.Çxeidzenin yanına gedib sabaha təyin olunmuş iclasın gündəliyini öyrənsin və eyni zamanda Batumdakı Azərbaycan nümayəndələri ilə birbaşa əlaqə saxlasın. F.X.Xoyski iclasa sədrliyi müvəqqəti olaraq X.Xasməmmədova həvalə edib getdi. X.Xasməmmədov yaranmış vəziyyət barədə məruzə edərək bildirdi ki, Xüsusi Zaqafqaziya Komitəsi dövründə belə Cənubi Qafqaz hökumətində daxil olan millətlər arasında heç vaxt əsl birlik və dostluq münasibətləri olmamışdır. Kürdəmir istiqamətində hücum edən bolşevik qüvvələrinə qarşı mübarizədə Azərbaycan türklərinə kömək məsələsində gürcü hökumət üzvləri həmişə ikili oyun oynamış, sözdə bir cür, əməldə isə başqa cür hərəkət etmişlər. Birliyin olmaması özünü həmçinin hökumətin iclaslarında büruzə verirdi. Bu iclaslar daha çox ayrı-ayrı dövlətlərin bir-birinə etibarı olmayan nümayəndələrinin konfransı görüntüsünü yaradırdı, nəinki vahid dövlət ailəsini [3, v. 43a].

Bir qədər sonra F.X.Xoyski, gürcü menşeviklərinin liderləri, Zaqafqaziya Seyminin sədri N.Çxeidze, Seym üzvləri İ.Sereteli və E.Gegeçkori ilə birlikdə qayıtdı. Müsəlman fraksiyasının iclasında ilk olaraq söz alan İ.Sereteli qeyd etdi ki, sosial-demokrak fraksiyası və ümumiyyətlə Seymin gürcü bölməsi bu nəticəyə gəlib ki, Zaqafqaziya xalqlarını müstəqillik şüarı ətrafında birləşdirmək mümkün olmadı. Zaqafqaziyanın süqutu faktı artıq göz qabağındadır. Xüsusilə Türkiyə ilə danışıqlar zamanı bu birliyin olmaması özünü aydın göstərdi. Bizim tərəfimiz azlıq tərəfi kimi etibarsızlıqla qarşılandı və biz indi məcbur olduq ki, Gürcüstanın müstəqilliyini elan edək. Biz birliyi çox qiymətləndiririk və yenə də ümidimizi itirmirik ki, bu birliyi gələcəkdə ümumi mənafelər istiqamətində inkişaf etdirəcəyik. Biz əminik ki, bu, gələcəkdə mümkün olacaq. Hazırki dövrdə isə bizim Gürcüstanın müstəqilliyini elan etməkdən başqa çıxış yolumuz yoxdur. Seymin sabahkı iclasında biz Zaqafqaziya Respublikasının süqutu faktını müəyyən edəcəyik. Sonra Seymin sədri N.Çxeidze Zaqafqaziya xalqlarının parçalanmasına dərin təəssüf etdiyini bildirdi. Onlara cavab verən F.X.Xoyski qeyd





etdi ki, Zaqafqaziya xalqları öz mənafeləri baxımından bir-birləri ilə sıx surətdə bağlıdırlar, onların ayrılması o qədər də asan məsələ deyildir. Lakin gürcü xalqının iradəsi belədirsə, bizim ona mane olmağa heç bir hüququmuz yoxdur, bu yeni vəziyyətlə əlaqədar olaraq Azərbaycan türklərinin də müvafiq qərar qəbul etməkdən başqa yolları qalmır. Gürcü nümayəndələri getdikdən sonra F.X.Xoyski məlumat verdi ki, Seymin və hökumətin üzvü X.Karçikyanla söhbət zamanı aydın oldu ki, Gürcüstan öz müstəqilliyini elan edərsə, onda Seymin erməni bölməsi də Ermənistanın müstəqilliyini elan edəcəkdir. Yaranmış vəziyyəti hərtərəfli müzakirə edən Müsəlman fraksiyası sonda aşağıdakı məzmunda qərar qəbul etdi: "Əgər Gürcüstan özünün müstəqilliyini elan edərsə, bizim tərəfimizdən də Azərbaycanın müstəqilliyi elan olunmalıdır" [3, v. 43a-45].

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin buraxılması ilə bağlı yaranmış böhranlı siyasi vəziyyəti müzakirə etmək üçün Müsəlman fraksiyasının nümayəndələri mayın 27-də M.Y.Cəfərovun sədrliyi ilə fövqəladə iclas keçirdilər. İlk olaraq Batumdan yenicə qayıtmış Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının üzvü N.Yusifbəyli məruzə ilə çıxış edib Batum danışıqlarının gedişi barədə məlumat verdi. O, qeyd etdi ki, Osmanlı nümayəndə heyəti Zaqafqaziya federasiyasının qorunub saxlanılmasına tərəfdardır və bu dövlətin möhkəmlənməsi və çiçəklənməsi üçün Türkiyənin əlindən gələni etməyə hazır olduğunu bəyan etmişdir. Türkiyənin qənaətinə görə Zaqafqaziyanın çiçəklənməsinin başlıca təminatı Qafqaz xalqlarının birliyi və həmrəyliyidir. Bu məqsədə çatmaq üçün bizim tərəfimizdən ermənilərə bir qədər ərazi güzəştlərinin edilməsi zəruri olacaqdır [3, v. 46]. Müsəlman fraksiyası yaranmış vəziyyəti geniş və hərtərəfli müzakirə edərək, vəziyyətin ciddiliyini nəzərə alıb, ölkədə anarxiyanın hökm sürdüyünü, növbədə mürəkkəb millətlərarası məsələnin dayandığı bir vaxtda Türkiyə ilə başlanmış danışıqları başa çatdırmaq, yenicə dağılmış Zaqafqaziya hökumətinin əmlakının bölüşdürülməsində müsəlmanlar adından çıxış etmək üçün xüsusi bir orqanın yaradılmasına ehtiyac olduğunu bildirdi və Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürüb, özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi [3, v. 46-47]. M.Ə.Rəsulzadə böyük səs çoxluğu ilə Milli Şuranın sədri seçildi. Onun əleyhinə yalnız "İttihad" partiyasından olan iki nəfər səs verdi. H.Ağayev və M.H.Seyidov sədrin müavinləri, M.Mahmudov və R.Vəkilov isə katib seçildilər. F.X.Xoyski də yekdilliklə icraedici orqanın sədri seçildi. Milli Şuranın Rəyasət Heyətinə Müsavat və bitərəf demokratik qrupdan M.H.Hacınski, N.Yusifbəyli, X.Xasməmmədov və M.Y.Cəfərov, Müsəlman sosialist blokundan X.Məlik-Aslanov və C.Hacınski, "İttihad" partiyasından isə X.P.Sultanov seçildi.

1918-ci il mayın 28-də Tiflisdə keçmiş Canişin sarayında Azərbaycan Milli Şurasının ilk iclası keçirildi. 26 nəfər şura üzvünün iştirak etdiyi bu iclasın gündəliyində üç məsələ dururdu: 1. H.Ağayevin Yelizavetpoldakı son hadisələr haqqında məlumatı; 2. M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi məktub və teleqramların oxunması; 3. Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti. Birinci məsələ ilə bağlı Yelizavetpoldan qayıtmış H.Ağayev ətraflı məlumat verərək bildirdi ki, 2-3 türk zabitinin Gəncəyə gəlməsinin Azərbaycanın gələcək siyasi həyatının qurulması ilə əlaqəsi yoxdur. Türklər Qafqazda-Azərbaycanda hər hansı bir təcavüzkar məqsəd güdmürlər, əksinə onlar Azərbaycanın və Zaqafqaziya Respublikasının müstəqilliyinin qorunub saxlanılmasında maraqlıdırlar [3, v. 49]. Sonra M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi məktub və teleqramlar oxundu.

Daha sonra ən mühüm, üçüncü məsələ - "Seymin buraxılması və Gürcüstanın müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanın vəziyyəti" ilə bağlı məruzə ilə çıxış edən X.Xasməmmədov, təxirə salınmadan Azərbaycanın müstəqil respublika elan edilməsinin zəruri olduğunu əsaslandırdı. Bu məsələ ilə bağlı çıxış edən N.Yusifbəyli, Ə.Şeyxülislamov, M.Seyidov və digərləri də X.Xasməmmədovu dəstəklədilər. F.X.Xoyski yerlərdə bəzi məsələlər aydınlaşana qədər Azərbaycanın müstəqilliyinin elan edilməsini təxirə salmağı, ölkələrlə sülh danışıqları aparmaq üçün tam hüquqlu

Azərbaycan hökuməti yaratmağı təklif etdi. F.X.Xoyskinin narahatçılığı Azərbaycanın müxtəlif bölgələrindən Osmanlı hökumətinə göndərilən ilhaqnamələrlə əlaqədar Osmanlı hökumətinin siyasətinin ilhaqçılığa meyllənməsi və artıq Gəncədə olan Nuru paşanın rəhbərlik etdiyi Osmanlı hərbi missiyasının da Azərbaycanın Türkiyəyə ilhaq edilməsi mövqeyindən çıxış etməsi ilə bağlı idi. O, müstəqilliyin elan edilməsindən əvvəl bu məsələnin aydınlaşdırılmasını vacib hesab edirdi. Bəhs edilən dövrdə Azərbaycan Türkiyəyə qarşı çıxa bilməzdi, çünki Osmanlı hərbi yardımı ölkə üçün müstəqillikdən belə vacib idi. Bu yardım olmadan elan edilən müstəqilliyi əməli olaraq həyata keçirmək faktiki olaraq mümkün deyildi. Digər tərəfdən də Batuma axışan erməni zülmündən cana doymuş xalq kütlələrinin nümayəndələri qəti olaraq müstəqilliyin əleyhinə çıxıb, birmənalı olaraq Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsini tələb edirdilər. Bu vəziyyəti xarakterizə edən Vehib paşa Ənvər paşaya göndərdiyi 29 may 1918-ci il tarixli teleqramında yazırdı: "Heç bir hökumət heyəti müsəlman əhalisi içərisinə girib, biz Cənubi Qafqaz müsəlman hökumətinin nümayəndələriyik deməyə cəsarət edə bilməz, dedikləri anda parçalanarlar" [17]. Erməni-bolşevik birləşmələrinin 1918-ci ilin aprel-may aylarında Azərbaycanın demək olar ki, bütün bölgələrində həyata keçirdiyi soyqırım cinayətləri türk-müsəlman əhalisinin tamamilə məhv edilməsi təhlükəsini ortaya qoyduğundan nəinki xalq kütlələri, hətta Milli Şura üzvləri içərisində də xalqın fiziki mövcudluğunun qorunub saxlanılması üçün Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsi tərəfdarları artmışdı. Əslində Milli Şuranın məhdud üzvlərindən başqa ölkədə kimsə müstəqillik istəmirdi, çünki onlar Azərbaycanın müstəqil olaraq öz mövcudluğunu sürdürə biləcəyinə inanmırdılar.

Buna görə də Milli Şuranın 28 may tarixli iclasında F.X.Xoyskinin təklifi ətrafında geniş müzakirələr getdi. Lakin sonda Azərbaycanın müstəqilliyinin elan edilməsi məsələsində ittifaq hasil oldu. Nəticədə, Azərbaycan Milli Şurası 24 səslə (iki nəfər – S.M.Qəniyev və C.Axundov bitərəf qalmışdı) təxirə salınmadan Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi [3, v. 49-50]. Bu tarixi aktda deyilirdi: "Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcub bir vəziyyəti siyasiyyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti-hazıreyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyeyi-İslamiyyəsi bütün camaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi xalq cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti-həsənə təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur" [2, v. 3; 4, v. 1-2]. Milli Şura üzvləri "İstiqlal Bəyannaməsi"ni ayaq üstə dinlədilər [3, v. 50].





Bundan sonra Milli Şura Azərbaycan hökümətinin yaradılmasını F.X.Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra F.X.Xoyskinin hökümətin yaradılması haqqında məruzəsini dinləmək üçün Milli Şuranın iclası öz işini davam etdirdi. İlk Azərbaycan müvəqqəti hökümətini F.X.Xoyski aşağıdakı tərkibdə təqdim etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri - Fətəli Xan Xoyski, hərbi nazir – Xosrovpaşa bəy Sultanov, xalq maarifi və maliyyə naziri – Nəsib bəy Yusifbəyli, xarici işlər naziri – Məmməd Həsən Hacınski, poçt-teleqraf və yollar naziri – Xudadat bəy Məlikaslanov, əkinçilik və əmək naziri – Əkbər ağa Şeyxülislamov, ədliyyə naziri – Xəlil bəy Xasməmmədov, ticarət və sənaye naziri – Məmməd Yusif Cəfərov, dövlət nəzarəti naziri – Cəmo bəy Hacınski [1, s. 6]. Bununla da Milli Şura Azərbaycan xalqı qarşısında çox şərəfli və tarixi bir missiyanı yerinə yetirmiş oldu. M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyəti aləmi-islamda təşəkkül edən ilk cümhuriyyətdir" [6, s. 10].

Gürcüstan və Azərbaycanın ardınca mayın 30-da erməni Milli Şurası tərəfindən Ermənistanın da müstəqilliyi elan edildi.

Beləliklə, Osmanlı hökumətinin diktəsi ilə elan edilən Zaqafqaziya Federativ Respublikası cəmi 34 gün yaşadı və elə Osmanlı hökumətinin növbəti tələbləri qarşısında vahid bir mövqeyə gələ bilməyib dağıldı. Cənubi Qafqazdakı hərbi-siyasi vəziyyətdən doğan şərtlər, eyni zamanda Almaniyanın pozuculuq fəaliyyəti, Osmanlı hökumətinin Zaqafqaziya Respublikasını müsəlmanların gürcü və ermənilər üzərində hakim mövqeyə sahib olduğu, Rusiya və Türkiyə arasında bufer rolunu oynayan və sonuncu ilə sıx ittifaqda və onun təsiri altında olan bir dövlətə çevirmək planlarını gerçəkləşdirməyə imkan vermədi. Belə olan halda, Osmanlı höküməti Zaqafqaziya federasiyasının dağılmasını uyğun bildi və Gürcüstan xaricində bütün Qafqazı birləşdirib Osmanlı dövlətinin himayəsi altında və onunla sıx ittifaqda olacaq bir müsəlman dövləti yaratmaq xəttini götürdü. Lakin bu xətt Osmanlı hökumətinin siyasi qanadının mövqeyi idi. Hökumətin hərbi qanadı isə, Qafqazın Osmanlı dövləti ilə əlaqələrinin xarakteri məsələsində himayə və ittifaq kimi formulları məqbul hesab etmir, bölgənin Türkiyəyə ilhaq edilməsi mövqeyindən çıxış edirdi. Bu fikir ayrılıqları sonralar da bir çox problemlərə yol açdı.

Seymin dağılması ilə Türkiyə Zaqafqaziya federasiyası ilə başladığı Batum danışıqlarını bu federasiyanın parçalanması nəticəsində yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları ilə ayrı-ayrılıqda davam etdirməli oldu. Tiflisdə baş verən son hadisələrlə əlaqədar ultimatumun müddəti daha bir gün uzadıldı və may ayının son günlərindən başlayaraq ayrı-ayrılıqda Türkiyə-Gürcüstan, Türkiyə-Azərbaycan və Türkiyə-Ermənistan danışıqları başladı. Bu danışıqlar da Türkiyənin hələ konfransın əvvəlində irəli sürdüyü və üzərində israrla durduğu bütün tələblərinin qəbul edilməsi ilə nəticələnən 4 iyun 1918-ci il tarixli Batum müqavilələrinin imzalanması ilə yekunlaşdı.

**İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:**


1. Azərbaycan Cümhuriyyəti Hökumətinin qanun və binagüzarlıq məcmuəsi. 1919, № 1.

2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 894, siy. 10, iş 192.

3. ARDA, f. 970, siy. 1, iş 1.

4. ARDA, f. 970, siy. 1, iş 4.

5. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı, «Garisma» MMC, 2009.

6. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990.

7. Allen W.E.D., Muratoff P. Kafkas Harekatı. 1828-1921 Türk-Kafkas Sınırındaki Harplerin Tarihi. Ankara, Genelkurmay Basımevi, 1966.

8. Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE), BDH, K. 2917, D. 493-302, F. 1-34.

9. ATASE, BDH, K. 2917, D. 493-302, F. 1-35.

10. ATASE, BDH, K. 2917, D. 493-302, F. 1-110.

11. ATASE, BDH, K. 2917, D. 493-302, F. 1-127.

12. ATASE, BDH, K. 2917, D. 493-302, F. 1-136, 1-137.

13. ATASE, BDH, K. 2918, D. 28-496, F. 1-151.
14. ATASE, BDH, K. 2919, D. 61-499, F. 3-1, 3-2.
15. ATASE, BDH, K. 2919, D. 61-499, F. 3-20.
16. ATASE, BDH, K. 2919, D. 61-499, F. 3-21.
17. ATASE, BDH, K. 2919, D. 61-499, F. 3-26, 3-27, 3-28, 3-29.
18. ATASE, A. 4/3671, K. 2921, D. 511, F. 1-225, 1-227.
19. Başbakanlık Osmanlı Arşivi (BOA), HR.HMŞ.İŞO, D. 55, G. 2.
20. BOA, HR.SYS, D. 2372, G. 3.
21. BOA, HR.SYS, D. 2373, G. 1.
22. BOA, HR.SYS, D. 2398, G. 4.
23. BOA, HR.SYS, D. 2398, G. 5.
24. BOA, HR.SYS, D. 2399, G. 1.
25. Swietochowski T. Müslüman Cemaat'ten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. İstanbul, Bağlam Yayınları, 1988.
26. Şahin E. Trabzon ve Batum Konferansları ve Antlaşmaları (1917-1918). Ankara, Türk Tarih Kurumu, 2002.
27. Авалов З. Независимость Грузии в международной политике. 1918-1921 гг. Париж, 1924.
28. Документы внешней политики СССР. В 22-х томах. Т. I. (7 ноября 1917 г – 31 декабря 1918 г. Ред. коллегия: И.Н.Земсков и др.). Москва, Госполитиздат, 1957.
29. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, Типография правительства Грузинской Республики, 1919.
30. Hovannisian R.G. Armenia on the Road to İndependence 1918. Los Angeles, Berkeley, 1967.
31. Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). New-York, 1951.
32. Bihl W. Die Kaukasus Politik der Mittelmächte. Die Zeit der versuchten kaukasischen Staatlichkeit (1917-1918). Teil II. Wien-Köln-Weimar, Böhlau Verlag, 1992.
33. Zürrer W. Kaukasien 1918-1921. Der Kampf der Grobmächte um die Landbrücke zwischen Schwarzem und Kaspischem Meer. Düsseldorf, Droste Verlag, 1978.

## Summary

**Vasif Gafarov**

### Batum conference and creation of Independent Azerbaijan Republic

***Key words***: *Batumi Conference, Transcaucasian Union, Azerbaijan Republic, Khalil Bey Menteshe, Akaki Chkhenkeli, Muhammed Amin Rasulzade, Muhammed Hassan Hajinski*

Batumi conference held between Ottoman Empire and Transcaucasian Republic has been studied in the article. Details of official and secret meetings at the same time consultations made between Talat pasha, prime minister of Ottoman state and Khalil Bay Menteshe, chief of turkish delegation to Batumi have been involved to the study. Such a conclusion has been reached, Transcaucasian Federative Republic which was declared with dictation of Ottoman state collapsed not bearing before subsequent requirements of Ottoman state after 34 days. Ottoman state tried to be a state who want to keep dominant position on muslims, georgian and armenians by keeping Transcaucasian Republic under its patronage. If implementation of plan is impossible, Istanbul govenrment wanted collapse of union and they wanted to combine whole Caucasus and create strong muslim state under patronage of Ottoman state. Using existing situation The National Council of Azerbaijan declared independence of Azerbaijan.





## Резюме

**Васиф Гафаров**

### Батумская конференция и образование Независимой Азербайджанской Республики

***Ключевые слова:*** *Батумская конференция, Закавказский Сейм, Азербайджанская Республика, Халил бек Ментеше, Акаки Чхенкели, Маммед Эмин Расулзаде, Маммед Гасан Гаджинский*

В статье исследована история Батумской конференции проведенной между Османской империей и Закавказской Республикой. К исследованию привлечены подробности официальных и закрытых встреч на основе первичных архивных материалов, а также консультации между премьер министром Османской империи Талят Паша и руководителем турецкой делегации в Батуми Халил Ментеше. По итогам этих исследований, Закавказская Федеративная Республика, образованная по диктовке Османской империи, распался через 34 дня, из-за разногласий перед требованиями Османской империи. Османская империя пыталась превратить Закавказскую Республику в подчиненное себе государство, где мусульманское население доминировала бы над грузинским и армянским народами. Из-за невозможности реализации этого плана Стамбульское государство отдает предпочтение распаду Сейма и берет направление по созданию объединенного и подчиненного Османской империи Кавказского мусульманского государства, исключением Грузии. В сложившимся ситуации Азербайджанский Национальный Совет, выполнил почетную миссию объявлением Независимости Азербайджана.